RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 276 (8869) BAZAR, 19 dekabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# BMT İlham Əliyevin daha bir qlobal təşəbbüsünü dəstəklədi

## Beynəlxalq ictimaiyyət Azərbaycan Prezidentinin "peyvənd millətçiliyi"nə qarşı mübarizəsini təqdir edir

**Dünya hələ də qlobal pandemiya bəlasından qurtulmayıb. Hətta bəzi mütəxəssislərin proqnozları deməyə əsas verir ki, bununla bağlı qarşıdakı dövrdə bəşəriyyət daha ciddi problemlə üzləşə bilər. Belə ki, dünya əhalisi vaksinasiya ilə COVID-ə qarşı kütləvi immunitet qazanmayana qədər epidemioloji vəziyyət gərgin olaraq qalacaq. Epidemioloji vəziyyətin belə olması isə dünya əhalisinin normal həyata dönməsinin hələ də mümkün olmadığını göstərir.**

### İlk töhfə

Ötən müddət ərzində koronavirus pandemiyası daha da artaraq yoluxma sayını və arealını ağlasığmaz miqyasda böyüdüb. Tibb elmi də sübut edir ki, koronavirusun daha geniş yayılmasının qarşısının alınması, eləcə də təsirinin azaldılması istiqamətində aparılan mübarizədə vaksinasiyanın mühüm rolu var. Yalnız peyvənd sayəsində dünya əhalisi koronavirusa qarşı kütləvi immunitet qazana və COVID-19 bəlasından qurtula bilər.

Amma peyvəndlənmənin bərabər şəkildə həyata keçirilməməsi, "peyvənd millətçiliyi" buna imkan yaratmır. Bu da reallıqdır ki, dünyada bütün ölkələrin koronavirusa qarşı peyvəndə əlçatanlığı bərabər səviyyədə deyil. Azərbaycan Qoşulmama Hərəkatına sədrlik edən ölkə kimi hər zaman bu hala qarşı çıxıb və bu məsələdə ədalətin bərqərar olunmasını tələb edib. Hətta bu məqsədlə 80-ə yaxın ölkəyə yardımlar da edib.

Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi pandemiyaya qarşı mübarizədə beynəlxalq ictimaiyyətin səfərbər edilməsi istiqamətində qlobal liderliyini davam etdirir. 2021-ci il sentyabrın 24-də BMT Baş Assambleyasının 76-cı sessiyasında çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev "peyvənd millətçiliyi"ni, varlı və kasıb ölkələr arasında peyvəndlərə əlçatanlıqla bağlı qeyri-bərabərliyi bir daha tənqid etmişdi. Dövlətimizin başçısı bütün ölkələr üçün peyvəndlərdən istifadə məqsədilə bərabər imkanların təmin olunması ilə bağlı Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasında qətnamənin irəli sürüləcəyini elan etmişdi.

Noyabrın 4-də Prezident İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "COVID-19-dan sonrakı dünya" mövzusunda növbəti Qlobal Bakı Forumunda da dövlətimizin başçısı bir daha bu məsələyə toxundu və peyvəndlənmə ilə bağlı real həqiqətləri açıqladı.

Prezident qeyd etdi ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının hazırkı sədri olaraq ötən il Azərbaycanın təşəbbüsü ilə aprel və may aylarında hər iki təşkilatın COVID-ə həsr olunmuş xüsusi Zirvə görüşü keçirilib: "Qoşulmama Hərəkatının Sammitində biz BMT-nin Baş Assambleyasının COVID-ə həsr olunmuş xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış etdik və bu təşəbbüs beynəlxalq birliyin mütləq əksəriyyəti tərəfindən dəstəklənmişdir və bu xüsusi sessiya keçən ilin 3 və 4 dekabr tarixlərində baş tutdu. Bu, bizim qlobal məsələlərin müzakirəsinə olan töhfəmiz idi. Eyni zamanda, biz BMT-nin İnsan Hüquqları Şurasında peyvəndlərlə bərabər və universal çıxış və peyvəndlərin ədalətli bölgüsünə dair təşəbbüs irəli sürdük.

Ardı 3-cü səh.

# Azərbaycan dünyada çox önəmli strateji mövqe tutur

## Prezident İlham Əliyev Brüsseldə İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibə verib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Brüsseldə işgüzar səfərdə olarkən dekabrın 15-də İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**

**Müxbir: Əvvəla, görüşmək imkanı yaratdığınız üçün Sizə təşəkkürümü bildirirəm. Mən dəfələrlə Azərbaycanda olmuşam, bir çox seçkilərin keçirildiyi vaxtlarda Azərbaycanda səfərdə olmuşam.**

**Prezident İlham ƏLİYEV:** Sonuncu dəfə nə vaxt olmusunuz?

**- Sonuncu dəfə ilyarım bundan öncə. Çox maraqlı ölkədir və etiraf edirəm ki, Siz böyük irəliləyişə nail olmusunuz. Mən "İl Sole 24 Ore"nin Yaxın Şərq üzrə müxbiriyəm. Bu, İtaliyanın ən böyük siyasi qəzetidir.**

- Bundan xəbərim var.

Ardı 2-ci səh.

# İlham Əliyev sosial islahatların yeni mərhələsinə start verdi

## Minimum əməkhaqqı 300 manat oldu

Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycan dövlətinin siyasətinin mərkəzində vətəndaşların marağı, rifahı dayanır. Dövlət başçısının həyata keçirdiyi sosial-iqtisadi siyasət, ardıcıl islahatlar məhz bu məqsədə xidmət edir.

Görülən tədbirlər çoxsaylı və əhalinin bütün təbəqələrini əhatə etmək baxımından genişdir. Son illər ərzində həmin istiqamətdə atılan önəmli addımlar sırasında sosial ödənişlərdə baş verən ciddi artımlar dayanır ki, bunların da mühüm bir hissəsi əməkhaqları ilə bağlıdır.

Məlum olduğu kimi, cari il dekabrın 17-də Prezident dörd yeni sərəncam imzalayıb. Bununla da Azərbaycanda sosial islahatların yeni mərhələsinə start verilib. Yeni sərəncamlar əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial ödənişlərin artırılması istiqamətində növbəti mühüm addımların atılmasını təmin edir. Xatırladaq ki, Prezident İlham Əliyev hələ bu il oktyabrın 16-da "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" sərəncamı ilə ölkəmizdə sosial islahatların yeni mərhələsinə başlanılmasına təminat yaradıb. Yeni mərhələ 2,1 milyondan çox şəxsi əhatə edəcək və bu islahat mərhələsi üçün illik əlavə 1,5 milyard manat vəsait də nəzərdə tutulub.

Bu günlərdə dövlət başçısının imzaladığı 4 yeni sərəncam isə 1 milyona yaxın vətəndaşın rifahına dəstəkdir. Bunlardan biri minimum aylıq əməkhaqqının məbləğinin artırılması barədədir.

Sərəncama əsasən, ölkədə minimum aylıq əməkhaqqının məbləği 2022-ci il yanvarın 1-dən 300 manat müəyyən edilir. Yəni hazırda 250 manat olan minimum orta aylıq əməkhaqqı 50 manat artırılır. Bu artımla 800 min işçi əhatə olunur. Minimum əməkhaqqı artımı üçün illik əlavə maliyyə xərci 460 milyon manat təşkil edir. Qeyd edək ki, 2018-ci ildə minimum əməkhaqqı 130 manat idi. Beləliklə, hazırkı artım da nəzərə alındıqda minimum əməkhaqqında artım həmin dövrdən bəri 2,3 dəfə yüksəlib.

Onu da qeyd etmək yerinə düşər ki, minimum əməkhaqqı artımı əhalinin gəlirlərində artımı təmin etməklə, əmək bazarındakı proseslərə müsbət təsir edir, xüsusilə işçi qüvvəsinin rəqabət qabiliyyətinin, əmək məhsuldarlığının artmasını, eyni zamanda əməyin leqallaşdırılmasını stimullaşdırır. Gələn il minimum əməkhaqqı 2022-ci il üçün nəzərdə tutulan yaşayış minimumunu (210 manat) 43 faiz üstələyəcək. Digər tərəfdən, bu artım ölkəmizdə xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına olan nisbəti göstəricisinin də növbəti dəfə yüksəlməsinə imkan verəcək. Son üç ildə həmin nisbət 2018-ci ildəki 26,5 faizdən 2019-cu ildə 33,3, 2020-ci ildə 38 faizə yüksəlib. 2022-ci ildə isə təqribən 40-41 faiz səviyyəsinəcən artacaq. Bununla da həmin nisbətin qabaqcıl beynəlxalq normalara uyğunlaşdırılması istiqamətində daha bir irəliləyişə nail olunur.

Prezidentin imzaladığı yeni sərəncamlardan ikisi ölkəmizdə təhsil işçilərinin sosial müdafiəsinin gücləndirilməsinin növbəti təzahürüdür. Həmin sərəncamlardan biri "Dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, o cümlədən həmin müəssisələrin direktor və direktor müavinlərinin, habelə gənclərin çağırışaqədərki hazırlıq rəhbərlərinin əməkhaqlarının artırılması haqqında"dır. Belə ki, gələn il yanvarın 1-dən respublikanın dövlət büdcəsindən maliyyələşən dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, həmin müəssisələrin direktor və direktor müavinlərinin aylıq vəzifə maaşları orta hesabla 20 faiz, gənclərin çağırışaqədərki hazırlıq rəhbərlərinin aylıq vəzifə maaşları orta hesabla 40 faiz artırılır.

Digər sərəncam isə "Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, o cümlədən gənclərin çağırışaqədərki hazırlıq və fiziki tərbiyə rəhbərlərinin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin əməkhaqlarının artırılması haqqında"dır.

Ardı 3-cü səh.

# Ermənistanın geriyə yolu yoxdur

## Daha ağır məğlubiyyət, daha dərin böhranla qarşılaşa bilər

Ermənistan Qarabağ savaşında aldığı zərbədən sonra heç cür özünə gələ bilmir. Bu səbəbdən müharibədə ağır məğlubiyyət yaşamış ölkə havadarlarına arxayın olub döyüş meydanında itirdiklərini diplomatiya müstəvisində kompensasiya etmək barədə düşünür.

Ermənilərin "bazarlıq" etmək istədiyi iki mühüm məsələ var. Bunun birincisi, Zəngəzur dəhlizinin açılmasına mane olmaq, ikincisi isə Qarabağın "status" məsələsini yenidən müzakirə mövzusuna çevirməkdir. Noyabrın 26-da Soçidə Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri arasında keçirilən üçtərəfli görüşdə N.Paşinyan bu məsələləri gündəmə gətirmək istəsə də, alınmadı. Prezident İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putinin mövqeyi qəti idi: Ermənistan 2020-ci il noyabrın 10-da imzalanan sazişin bütün bəndlərini yerinə yetirməlidir. Rusiyanın dövlət başçısı birmənalı olaraq bildirdi ki, tez bir zamanda sərhədlərin demarkasiyası və delimitasiyasına başlanılmalı və Zəngəzur dəhlizinin açılması üçün lazımi işlər görülməlidir. Bu qəti mövqedən və tələbdən sonra ermənilərin qurduğu xəyallar növbəti dəfə puç oldu. Ermənistan böyük ümidlə getdiyi Soçi görüşündən "əli ətəyindən uzun" qayıtmalı oldu.

Amma Ermənistanın kiməsə güvənməsi, hardansa mədət umması bitmək-tükənmək bilmir. Soçi görüşündən sonra bütün ümidlərini Brüssel görüşünə bağlayan İrəvan Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə görüşü səbirsizliklə gözləyirdi.

Ardı 3-cü səh.

# Azərbaycanın Brüssel uğuru ölkəmizin beynəlxalq mövqelərini daha da gücləndirdi

Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi Qələbə Cənubi Qafqaz regionunda tamamilə yeni reallıqlar yaradıb. Bu reallıqlar fonunda atılan addımlar Cənubi Qafqaza əbədi sülh və tərəqqi vəd edir. Elə dünya ölkələri və təşkilatlarının da prosesə yanaşması bundan ibarətdir.

Vətən müharibəsi başa çatdıqdan sonra Azərbaycanın regionda əməkdaşlıq, o cümlədən kommunikasiya əlaqələrinin bərpası, Zəngəzur dəhlizinin açılması istiqamətində təklif və təşəbbüsləri beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməyə başlandı. Azərbaycan, Rusiya, Ermənistan liderlərinin 2020-ci il 10 noyabr, 2021-ci il 11 yanvar, 2021-ci il 26 noyabr tarixli üçtərəfli bəyanatlarında əksini tapmış kommunikasiyalarla bağlı məsələyə Avropa İttifaqı da öz dəstəyini ifadə etdi.

Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüşdən sonra verilən bəyanat da bunu təsdiqlədi. Şarl Mişelin adından yayılan bəyanatda regionda kommunikasiya infrastrukturunun yaradılmasına, ölkələr arasında əlaqəni təmin edən xətlərin açılmasına və inkişaf etdirilməsinə Avropa İttifaqının açıq dəstəyi ifadə olundu.

Ardı 3-cü səh.



# Quraqlıq suya qənaət rejimini növbəti dəfə aktual etmişdir

Bax: səh. 4

# Azərbaycan dünyada çox önəmli strateji mövqe tutur

## Prezident İlham Əliyev Brüsseldə İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibə verib

*Əvvəli 1-ci səh.*

**- Etiraz etmirsinizsə, mən müsahibə zamanı Azərbaycanın İtaliya ilə güclü münasibətlərinə toxunmaq istərdim.**

- Bəli, böyük məmnuniyyətlə.

**- İqtisadiyyatın şaxələndirilməsi. Bu, çox maraqlı mövzudur. Beynəlxalq media, zənnimcə, bunu layiqincə işıqlandırmayıb.**

- Razıyam.

**- İcazənizlə başlayaq. Mənim ilk sualım Dağlıq Qarabağ məsələsi ilə bağlıdır. Dünən Siz maraqlı bir görüş keçirmisiniz. Səhv etmirəmsə, Sizin dünən Ermənistanın baş naziri və cənab Şarl Mişellə görüşünüz olub. Görüş necə keçdi və bizim bilməli olduğumuz hər hansı bir yenilik varmı?**

- Əvvəlcə, mən Avropa İttifaqı Şurasının prezidenti cənab Şarl Mişellə görüşdüm. Bir saat ərzində biz geniş sahələri əhatə edən məsələləri müzakirə etdik. Əlbəttə, əsas diqqət münaqişədən, ötənilki müharibədən sonra yaranmış vəziyyətə yönəldilmişdir. Əlbəttə, Avropa Komissiyasının səyləri Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılmasına yönəldilib. Biz Avropa Komissiyasının və xüsusilə də cənab Mişelin səylərini yüksək qiymətləndiririk. O, bu ilin yayında Azərbaycanda və Ermənistanda səfərdə olmuşdu. Biz bu səfərdən sonra daim təmasda olmuşuq və o, vəziyyətin təfərrüatından xəbərdardır. Biz onun şəxsi iştirakına böyük dəyər veririk.

Günün sonunda bizim üçtərəfli görüşümüz oldu və həmin görüş dörd saatdan artıq çəkdi. Hesab edirəm ki, görüş olduqca səmərəli idi. Hər iki tərəf əsasən İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni reallıqlar, həmin reallıqlara uyğunlaşma və qonşu olaraq yaşamağı öyrənmək kimi məsələlərdə öz mövqeyini aydın şəkildə təqdim etdi. Əlbəttə, biz postmüharibə vəziyyətinin praktiki elementlərini, xüsusilə də kommunikasiyaların açılmasını müzakirə etdik. Bu, ötən ilin noyabrında Rusiya Prezidenti, Ermənistanın baş naziri və mənim tərəfimdən imzalanmış üçtərəfli Bəyanatın mühüm hissəsidir. Lakin çox vacib Bəyanatın bu hissəsinin icrası olduqca ləng gedir. Beləliklə, dünən Ermənistan tərəfindən dərhal həyata keçiriləcək fəaliyyətə dair mühüm qərarlar qəbul edildi ki, dəmir yolu layihəsinin praktiki reallaşdırılmasına start verilsin. Bizə gəldikdə, artıq işlərə başlamışıq və azad edilmiş ərazilərdən Ermənistan sərhədinə qədər dəmir yolu xətti 2023-cü ilin sonunadək hazır olmalıdır. Biz, əlbəttə, ümid edirik ki, o vaxta qədər Ermənistan özünün ev tapşırığını yerinə yetirəcək. Əlbəttə, biz digər məsələlərə də toxunduq. Minaların təmizlənməsi məsələsi tərəfimizdən qaldırıldı və prezident Mişel Azərbaycana bu vəziyyətin öhdəsindən gəlməkdə yardımçı olmaq arzusunu ifadə etdi. Çünki müharibə bitdikdən sonra 200 nəfərə yaxın insan minalar səbəbindən həlak olub və ya ağır yaralanıb. Biz, həmçinin humanitar və bir çox digər məsələləri müzakirə etdik. Hesab edirəm ki, olduqca məhsuldar müzakirələr aparıldı. Mən çox məmnunam.

**- Siz bir fikir bildirdiniz və burada ağlıma belə bir sual gəldi. Avropa İttifaqı bu yaxınlarda Ermənistana 2 milyard dollar həcmində dəstək paketini elan etdi. Ukraynaya da 2 milyard dollara yaxın yardım ayrılacaq. Səhv etmirəmsə, Azərbaycana isə sadəcə, 140 milyon avro ayrılacaq. Yəni, burada çox böyük fərq var. Sizcə, nə üçün belədir? Belə bir qərar haradan qaynaqlanır?**

- Bunun nədən belə olduğunu demək çətindir. Çünki bu suala cavab vermək üçün ixtiyarımda kifayət qədər fakt olmalıdır. Mən yalnız bununla öz fikrimi bildirə bilərəm. Siz tamamilə haqlısınız. Bu, bir çox müşahidəçiləri təəccübləndirən fakt oldu və Azərbaycan əhalisi üçün də çox xoşagəlməz bir sürpriz oldu. Bir məsələni dəqiqləşdirim - Avropa Komissiyası tərəfindən Ermənistana təqdim ediləcək paketin həcmi 2.6 milyard dollardır, Azərbaycana isə sizin qeyd etdiyiniz kimi, 140 milyon. Yəni, fərq təqribən 20 dəfədir. Bu, ədalətlidirmi? Xeyr. Bu, hər iki ölkənin real ehtiyaclarına müvafiqdirmi? Xeyr. Hətta azad olunmuş ərazilərdə Ermənistan tərəfindən törədilmiş dəhşətli dağıntıları kənara qoysaq belə, hər iki ölkənin əhalisinin sayına nəzər salsaq, görərik ki, fərq 5 dəfədən çoxdur - Azərbaycanın əhalisi 10 milyon, Ermənistanda isə 2 milyon. Bundan əlavə, işğal illəri ərzində Livanın sahəsinə bərabər ərazilər tamamilə dağıdılıb. Bu gün əcnəbi vətəndaşlar və jurnalistlər həmin ərazilərə səfər edəndə dağıntıların miqyasını öz gözləri ilə görürlər. Eyni zamanda, bizim hesablamalara görə, orada 1 milyona yaxın mina basdırılıb. Minaları təmizləmə prosesi olduqca baha başa gəlir və çox vaxt aparır. Ermənistanda heç bir dağıntı yoxdur. Bu ölkə işğal edilməmişdi, o, özü işğalçı idi. Fiziki cəhətdən belə Ermənistanın iqtisadiyyatı bu nəhəng həcmli paketi mənimsəyə bilməz. Beləliklə, bu, çox təəccüblüdür və bu paket elan edildikdən sonra, Prezident Mişelin bu yay Azərbaycana səfərindən sonra biz bu mövzunu daim müzakirə edirik. Biz istəyirik ki, yanaşma vahid standartlara əsaslansın. Biz ədalət istəyirik və əlbəttə, Azərbaycana eyni şərtlərlə, eyni həcmdə vəsaitin verilməsini istəyirik.



**- Cənab Prezident, Siz tamamilə haqlısınız. Minaların təmizlənməsi çox həssas, vacib və strateji fəaliyyətdir. Həqiqətən də azərbaycanlıların azad olunmuş ərazilərə geri dönməsi və məskunlaşması arzu olunursa, həmin ərazilərin təhlükəsizliyi təmin edilməlidir. Bu səbəbdən mən təəccübləndim. Minaların təmizlənməsi kimi həssas bir məsələnin Avropa İttifaqını daha öncə hərəkətə keçməyə vadar etməməsi Sizi təəccübləndirirmi?**

- Bilmirəm. Mən dəfələrlə bu məsələləri qaldırmışam və dünən də cənab Mişellə görüşdə hətta təklif etdim ki, Avropa Komissiyası özünün fondları vasitəsilə Azərbaycanda minalardan təmizləmə prosesinin maliyyələşdirilməsini nəzərdən keçirsin. Dedim ki, pulu bizə verməyin, minaların təmizlənməsi ilə məşğul olan Avropa şirkətlərinə maliyyə yardımı ayırın ki, onlar Azərbaycana gəlsinlər və işə başlasınlar. Çünki Azərbaycan üçün fiziki olaraq bunu qısa müddətdə etmək mümkün deyil. Bundan əlavə, bu, çox bahalı işdir və siz tamamilə haqlısınız ki, minalar təmizlənməsə, biz insanların geri qayıdışını təmin edə bilmərik. Onlar bunu 30 ilə yaxındır ki, gözləyirlər. Hazırda genişmiqyaslı bərpa işlərinə başlanılan ərazilər minalardan təmizlənib, digər yerlər isə yox. Yəni, geri dönəcək insanlar ciddi problemlər və həyati təhlükə ilə üzləşəcəklər. Beləliklə, mən ümid edirəm ki, təmaslarımızda buna daha çox aydınlıq gətiriləcək. Əlbəttə, bizim ehtiyaclarımız minaların təmizlənməsi ilə məhdudlaşmır. Hər şey dağıdılıb. Oralarda nə şəhər, nə də kənd var - tamamilə dağıdılmış ərazilərdir. Bizim mövqeyimiz ondan ibarətdir ki, Ermənistana maliyyə töhfəsinin səviyyəsi istər ianə olsun, istərsə də kredit, Azərbaycanla eyni olmalıdır.

**- Ola bilərmi ki, Avropa İttifaqı burada bir az ehtiyatlı davranır. Çünki bəzi hesabatlara görə, Azərbaycanda hələ də insan hüquqları, mətbuat azadlığı sahəsində müəyyən problemlər var? Azərbaycan bugünə qədər inkişaf edib və hər kəsə məlumdur ki, bu proses zaman tələb edir. Sizcə, bu məsələ həmin fəaliyyəti ləngidə bilərmi?**

- Xeyr, mən belə düşünmürəm. Əvvəla, indi Avropa təsisatlarında daha aydın təsəvvür var ki, insan hüquqları və media azadlığına dair problemlərin olması təəssüratı şişirdilib. Çünki Azərbaycanda media ilə bağlı məhdudiyyətlər yoxdur, bizdə azad internet var və senzura mövcud deyil. Azərbaycan əhalisinin 80 faizindən çoxu internet istifadəçisidir, medianı məhdudlaşdırıb azad internetə malik olmaq mümkünsüzdür. Eynilə insan hüquqları məsələsi. Bütün insan hüquqları qorunur və bu gün Azərbaycan uzun illər əvvəl üzləşdiyi tənqidə məruz qalmır. Çünki birincisi, biz avropalı tərəfdaşlarımızı inandırmağa müvəffəq olduq ki, onların məlumatı əsasən səhv ssenariyə əsaslanıb və biz genişmiqyaslı siyasi və iqtisadi islahatlar həyata keçirdik. İkincisi, əgər siz mahiyyətə diqqət etsəniz, görərsiniz ki, Ermənistanda insan haqları və siyasi azadlıqlar kobud şəkildə pozulur. Məsələn, siyasi partiyaların çoxlu təmsilçiləri həbsdədir. Əsas siyasi partiyaların liderlərinə qarşı cinayət işləri açılıb. Ermənistanda repressiyalarla bağlı böyük ictimai narazılıq var və bütün bunlar açıq-aşkar faktlardır. Lakin Ermənistanın sanki bir daimi çətiri var, orada nə baş verməyindən asılı olmayaraq, o, demokratiya hesab olunur. Bir növ ikili standartlar...

**- Üzr istəyirəm. Daha bir sual. Mən çox açıq ola bilərəm?**

- Bəli, əlbəttə.

**- Siz Ermənistan silahlı qüvvələrinin birinci müharibə zamanı ələ keçirdiyi rayonları ayyarıma geri qaytardınız. Demək olar ki, 15 illik danışıqlarda Siz bu nəticəni əldə etməmişdiniz. Mənim sualım belədir: Əvvəllər Minsk qrupunun fəaliyyətinin qeyri-rəsmi olaraq status-kvoya, sadəcə, sülhün saxlanılmasına yönəldiyi görünürdü. Bu, bəlkə də Rusiya üçün əlverişli idi ki, o, işlər bu cür getdiyi müddətdə rol oynaya bilsin. Minsk qrupunun rolu ilə bağlı fikirləriniz nədən ibarətdir? Çünki Sizin özünüzdə də bu qrupun fəaliyyəti ilə bağlı skeptisizm, hətta məyusluq var idi.**

- İlk növbədə, demək istərdim ki, Minsk qrupu ATƏT-in mandatına əsasən, 1992-ci ildən münaqişəni həll etməyə məcbur idi. Onlar ötən il noyabrın sonunadək, biz 44 gün ərzində əraziləri azad edənə kimi 28 il ərzində fəaliyyət göstərdilər. Mənim Minsk qrupunun fəaliyyəti ilə bağlı fikrim Azərbaycan xalqının fikrindən fərqlənmir. Bu, uğursuzluq idi. Biz həqiqəti deməliyik. Məsələnin gün işığı kimi aydın olduğu halda, biz siyasi korrektlik naminə bunun əksini söyləyə bilmərik. Əgər Minsk qrupunun həmsədrləri - dünyanın aparıcı ölkələri, Təhlükəsizlik Şurasının 5 daimi üzvündən 3-ü, 3 nüvə dövləti, dünyanın ən güclü ölkələri Ermənistanın işğalına son qoya bilmədilərsə və ya bunu etmək istəmədilərsə, bu, o deməkdir ki, onların fəaliyyəti uğursuz idi. Onlar 28 il fəaliyyət göstərdilər. Təsəvvür edirsiniz?

**- Sözünüzü kəsdiyimə görə, üzr istəyirəm. Madrid prinsiplərindən başlayaq. Lakin bu, uzun dövrdür.**

- Bəli, Madrid prinsipləri 10 il əvvəl idi. Onlar isə 1992-ci ildə fəaliyyətə başladılar. Mənim qeyd etdiyim üç aparıcı ölkə isə bundan bir neçə il sonra həmsədr oldu. Lakin istənilən halda, 20 ildən çox fəaliyyət göstəriblər, nəticə sıfra bərabər olub. Bəs, niyə? Bəlkə də ona görə ki, siz qeyd etdiyiniz kimi, status-kvo onlar üçün qəbuledilən idi. Buna baxmayaraq, sizə deyə bilərəm ki, müəyyən mərhələlərdə, hətta Minsk qrupu həmsədr ölkələrinin dövlət başçıları səviyyəsində müsbət bəyanatlar var idi ki, status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Bu, bizi çox ümidləndirirdi. Lakin əfsuslar olsun ki, heç bir hərəkət yox idi. Bu, çox sadə idi. Mən bu məsələni dəfələrlə qaldırmışam. Ermənistanı Azərbaycan ərazilərini tərk etməyə və BMT Təhlükəsizlik Şurasının bunu tələb edən qətnamələrinə əməl etməyə yola gətirmək və ya məcbur etmək üçün yeganə yol Ermənistana qarşı sanksiyalar tətbiq etmək idi. Biz bilirik ki, müəyyən hallarda bu sanksiyalar digər ölkələrə qarşı tətbiq olunur, lakin Ermənistana qarşı yox. Yenə də ikili standartlar, yenə də ədalətsiz yanaşma. Azərbaycan xalqı Minsk qrupu üçlüyünün bu daimi səfərlərindən yorulmuşdu. Onlar ildə bir neçə dəfə gəlib-gedirdilər və heç bir nəticə yox idi. Onların fəaliyyəti faktiki olaraq 2019-cu ildən sonra, Ermənistanın baş naziri "Qarabağ Ermənistandır" bəyan edəndən sonra tamamilə iflic oldu. Bu, o demək idi ki, danışıqların sonudur. Çünki əgər Ermənistan "Qarabağ Ermənistandır" deyirsə, nə barədə danışmaq olar? Digər məsələ ondan ibarətdir ki, bir qədər sonra Ermənistan rəhbərliyi dedi ki, Qarabağ müstəqil ölkədir. Bu da əvvəlki bəyanatla ziddiyyət təşkil edirdi. Lakin Minsk qrupu reaksiya vermədi. Onlar hətta bu bəyanatı pisləmədilər. Əlbəttə ki, bu cür davranış yalnız Ermənistanı danışıqlar masasında mövqeyini möhkəmləndirməyə və işğalı sonsuz etməyə cəsarətləndirdi. Ermənistanın hədəfi bu idi və təəssüflər olsun ki, Minsk qrupu bu işdə onlara kömək etdi.

**- Təşəkkür edirəm, cənab Prezident. Gəlin regiona, xüsusilə Avropa ilə Rusiya arasındakı problemə keçək. Bu, əslində, Sizin işiniz deyil, lakin Azərbaycan Avropaya kömək edə bilər. Avropa İttifaqında narahatlıqlar var ki, Rusiyanın Ukraynanı işğal etmək ehtimalı elə gərginlik yarada bilər ki, bəzi layihələr təxirə salınar və hətta Rusiya təbii qazı silah kimi istifadə edə bilər. Onu nəzərdə tuturam ki, Avropa İttifaqı öz təchizat marşrutlarını şaxələndirməyi həddindən çox istəyir və əslində, Cənub Dəhlizi ən maraqlı gələcək kanallardan biri kimi görünür. Sizin böyük həcmdə qazınız var, Sizin yaşıl enerji ilə bağlı maraqlı proqramınız var. Sizin ixrac etmək üçün daha çox qazınız var. Siz hətta TAP-la bitən xətti iki dəfə uzadaraq Yunanıstandan Burqasadək çatdıra bilərsiniz. Avropa İttifaqı Sizdən daha çox təbii qazın təchiz edilməsi ilə bağlı kömək istəsə, Siz bu müraciəti mümkün qədər tez bir zamanda təmin etməyə hazır olacaqsınızmı?**

- Sözsüz ki, bizim qaz strategiyamız çox aydın və açıq olub. Biz uzun illər ərzində bu mühüm layihəni həyata keçirmək üçün Azərbaycanda çox iş gördük, tərəfdaşlarla birgə işlədik. Bu, XXI əsrin ən böyük infrastruktur layihələrindən biri hesab olunur. Uzunluğu 3500 kilometr olan "Cənub qaz dəhlizi" Bakıdan Adriatik dənizinin dibi ilə, yüksək dağlıq ərazilərdən keçərək İtaliyaya çatır. Bu, texniki baxımdan çox mürəkkəb və əlbəttə ki, çox bahalı layihədir. Azərbaycan "Cənub qaz dəhlizi"nin 4 seqmentinin hamısında əsas maliyyə yükünü öz üzərinə götürüb. Ötən ilin dekabrında layihənin tam başa çatmasından əvvəl biz artıq istehlakçılarla müqavilələr imzalamışdıq. Bizim qazımız müqavilə əsasında alındı və qiymətlə bağlı, belə deyək, qaz böhranı zamanı bizim istehlakçılar heç bir dəyişiklik hiss etmədilər.

Gələcək planlarımız barədə danışırıqsa, sözsüz ki, hasilatı artırmaq, ixracı artırmaq imkanı var. Lakin bu, sözsüz ki, avropalı istehlakçıların tələbindən asılı olacaq. Avropa Komissiyası bu prosesdə bizə kömək göstərdi. Biz "Cənub qaz dəhlizi"nin Məşvərət Şurasını mütəmadi olaraq Bakıda Avropa İttifaqının nümayəndələri və Azərbaycanın sədrliyi ilə bir araya gətiririk. Növbəti sessiya gələn ilin fevralında keçiriləcək, orada biz bütün məsələlərlə məşğul olacağıq və gələcək addımlarımızı planlaşdıracağıq. Bu, şirkətlərin, bankların və ölkələrin böyük bir qrupudur. İndi komanda böyüyür, çünki biz artıq Avropanın təchizatçısı olmuşuq. Yanvarın 1-dən başlayaraq biz İtaliya, Yunanıstan və Bolqarıstanı 7,2 milyard kubmetr qazla təchiz etmişik. Gələn il bu, 9 milyard, 2023-cü ildə azı 11 milyard kubmetr olacaq. Beləliklə, bu, ciddi artımdır. Lakin hasilatı artırmaq üçün biz, əlbəttə ki, investisiya yatırmalıyıq və bunu etmək üçün bizim istehlakçılarla müqavilələrimiz olmalıdır. Beləliklə, birincisi müqavilələr, ikincisi investisiya və üçüncüsü qaz. Prosesin mərhələlərinin ardıcıllığı belədir. Lakin biz hazırıq, sizin qeyd etdiyiniz kimi, nəhəng yataqlarımız var, tam yeni, müasir infrastrukturumuz var, Avropanın digər yerlərinə də bağlayıcıların çəkilməsi mümkündür. Siz Balkanları qeyd etdiniz və mən Mərkəzi Avropanı əlavə edərdim. Bu, bizim üçün təchizatın şaxələndirilməsi və istehlakçılar üçün şaxələndirmə olacaq.

**- Bəli. Gəlin zənn edək ki, hər şey doğru istiqamətdə gedir. Siz hasilatı, Avropaya ixracı artıracaqsınız. Siz Rusiyanın reaksiyasından qorxmursunuz? Çünki Rusiya Sizin çox mühüm iqtisadi tərəfdaşınızdır, həmçinin regionda nəhəng gücdür. Sizdən xeyli çox qaz ixrac etməsi faktdır. Lakin bu, rəmzi addım ola bilər. Siz Rusiyanın reaksiyasından qorxmursunuz?**

- Xeyr, qətiyyən. İlk növbədə, bu məsələ ölkələrin liderləri arasında heç vaxt yüksək səviyyədə müzakirə olunmayıb. Bizim neft kəmərlərindən tutmuş, qaz kəmərlərinədək bütün enerji layihələrimiz regionda çox dostyana mühitdə tamamlanıb. Bu, birincisi. İkincisi, Rusiya bizim siyasətimizə, xarici siyasətimizə, enerji siyasətimizə tam hörmət edir. Biz rəqib deyilik. Dəfələrlə qeyd etdiyim kimi, bu məsələlər bəzən süni şəkildə şişirdilir. Biz heç bir halda Rusiyanın rəqibi deyilik. Çünki Rusiya Avropanı yüz milyardlarla kubmetr qazla təchiz edir və Rusiya qazına tələbat artır. Azərbaycan yeni başlayıb və qeyd etdiyim kimi, bizim Avropaya təchizatımız 2023-cü ildə 11 milyard kubmetr olacaq və əgər yeni müqavilələrimiz olmasa, yeni hasilata investisiya yatırmasaq, bu, belə qala bilər. Ona görə də, bu, heç bir halda bizim Rusiya ilə çox müsbət və yaxşı balanslaşdırılmış münasibətlərimizdə mənfi rol oynaya bilməz.

**- Gəlin, Sizin iqtisadiyyatınıza keçək. Ölkəniz enerji, əsasən, neft və təbii qaz ixracından asılıdır. Düşünürəm ki, iqtisadi şaxələndirmə prosesi bu gün Sizin üçün prioritetdir. Açığını desək, indiyədək bu proses çox yavaş gedib. Siz necə sürətləndirmək niyyətindəsiniz? Onu irəliyə aparmaq üçün hansı hədəfiniz var?**

- Bizim iqtisadiyyatın quruluşuna gəlincə, hesab edirəm ki, neft və qazın ÜDM-də həcminin əhəmiyyətli dərəcədə azaldılmasına nail olmuşuq. Uzun illər bundan öncə neft və qazın ÜDM-də payı mütləq çoxluq təşkil edirdi, indi isə yarıdan da azdır. Beləliklə, Azərbaycan iqtisadiyyatının strukturu daha çox balanslaşdırılmış oldu. Lakin bizim ixracımıza gəldikdə, əlbəttə ki, ixracın 90 faizindən çoxunu neft, təbii qaz, neft məhsulları və elektrik enerjisi təşkil edir. Ölkə üçün bu üstünlükdür, çünki biz bazarlara daxil ola bildik, biz neft, təbii qaz, elektrik enerjisi, neft-kimya və neft məhsulları ixrac edirik və bunlar da iqtisadiyyatımıza çoxlu maliyyə axını gətirir. Qazı nə qədər çox ixrac etsək, - çünki qazın həcminin artması açıq-aşkardır, - qeyri-neft məhsullarının ixrac əməliyyatlarında payı bir o qədər də azalır. Neft və qaz üçün biz bazarları axtarmalı deyilik. Neft dünya bazarındadır, qazın artıq bazarı var. Lakin digər, məsələn, kənd təsərrüfatı məhsulları kimi məhsullarımız üçün biz regional bazarlarla məhdudlaşırıq. Avropa bazarına daxil olmaq çox çətindir, çünki Avropa bazarında ölkələr özləri bir-biri ilə rəqabət aparır. Beləliklə, biz əsasən Türkiyəyə, Rusiyaya və bəzi digər ölkələrə ixrac edirik. Deyərdim ki, bu il o baxımdan çox əlamətdar oldu. Qeyri-enerji layihələrinin ixracı 45 faiz artdı. Bizim energetikaya aid olmayan sənayemiz 20 faiz artdı. Bu, həqiqətən də əlamətdar nəticədir. Yenə də ixracın həcmində qeyri-neft seqmentinin nisbəti aşağıdır. Lakin hesab edirəm ki, bu seqment artacaq, xüsusilə azad edilmiş ərazilərdə yeni imkanları və kənd təsərrüfatının, turizmin, bərpa olunan enerjinin və sənayenin nəhəng potensialını nəzərə alsaq. Beləliklə, biz gələcəkdə neft və qazdan asılılığı azaltmağı planlaşdırırıq. Lakin eyni zamanda, biz başa düşməliyik ki, gələcək bir neçə onilliklər ərzində neft və qaz bizim iqtisadiyyatımızda vacib rol oynayacaq.

**- Gəlin İtaliyaya keçək. Çünki İtaliya Azərbaycan üçün çox maraqlıdır. İtaliya Azərbaycanın ilk xarici ticarət tərəfdaşı olub, Roma və Bakının yaxşı münasibətləri var. Təbii qazdan əlavə olaraq Azərbaycan aparıcı neft təchizatçısıdır. Azərbaycan iqtisadiyyatının şaxələnməsində italyan şirkətləri üçün imkanlar varmı? Məsələn, Siz azad edilmiş əraziləri yenidən qurmaq niyyətində olduğunuzu dediniz. Hətta yaşıl resurslarla bağlı həyata keçirilə biləcək çoxlu layihələr var.**

- Əlbəttə ki, İtaliya nəinki təkcə Avropa qitəsində, dünya miqyasında bizim ən yaxın tərəfdaşlarımızdan biridir. Hesab edirəm ki, indi münasibətlərimiz çox yüksək səviyyədədir. Bunun göstəricisi odur ki, biz strateji tərəfdaşlıq haqqında sənəd imzalamışıq. İtaliya Azərbaycanın strateji tərəfdaşlıq haqqında sənəd imzaladığı Avropa İttifaqına üzv olan 9 dövlətdən biridir. Prezidentlərin və digər hökumət rəsmilərinin yüksəksəviyyəli səfərləri olub. Sizin qeyd etdiyiniz kimi, İtaliya bizim əsas ticari tərəfdaşımızdır. İndi isə Transadriatik boru kəmərinin istismara verilməsi ilə Azərbaycan İtaliyanın mühüm təchizatçısına çevrilib. İtaliya istehlakında Azərbaycan qazının həcmi ilbəil artacaq. Eyni zamanda, dost ölkə olaraq İtaliya bizim azad edilmiş ərazilərdə fəaliyyət göstərmək üçün dəvət etdiyimiz ilk ölkələrdən biri olub. Birincisi Türkiyə idi, ikincisi İtaliya. Sizə deyə bilərəm ki, hazırda italyan şirkətlərinin orada icra etdiyi çoxlu layihələr var. Biz italyan memarlarını Şuşadakı tarixi abidələrimizi və məscidlərimizi bərpa etmək üçün dəvət etmişdik. Bu, çox rəmzi məna daşıyan bir jestdir, çünki Şuşa bizim üçün müqəddəs yerdir. Şuşa Azərbaycanın mədəni paytaxtıdır. Dini məkanlar isə hər kəs üçün müqəddəsdir. Bu, çox yüksəksəviyyəli etimaddır. Bu yaxınlarda Şuşaya səfər edəndə işlərini necə görəcəklərini mənə nümayiş etdirən italyan şirkətlərinin nümayəndələri ilə görüşdüm. İtalyan şirkəti Bakıda Zəfər Muzeyinin tikintisinə fəal şəkildə cəlb olunub. Bu, rəmzi məna daşıyan digər bir jestdir, çünki siz bu tarixi Qələbənin bizim üçün nə qədər böyük məna daşıdığını təsəvvürünüzə gətirə bilərsiniz. Biz tərəfdaşlığımızı nümayiş etdirmək üçün və italyan şirkətlərinin yüksəksəviyyəli fəaliyyətini, zövqünü və ölkələrimiz arasında dostluq münasibətlərini nəzərə alaraq məhz buna görə italyan şirkətini dəvət etdik. Mən sizə italyan şirkətlərinin çox fəal iştirak etdiyi azad edilmiş ərazilərdə və Azərbaycanın digər yerlərində çoxsaylı tikinti layihələrini qeyd edə bilərəm. Sizə deyə bilərəm ki, Prezident Mattarellanın ölkəmizə səfəri zamanı biz birlikdə italyan şirkəti tərəfindən tikilmiş neft-kimya zavodunun açılışını etdik. İndi isə eyni şirkət bizim neft emalı zavodumuzun yenidən qurulması üzərində fəal şəkildə işləyir. Bunlar bir neçə milyardlıq layihələrdir. Bu sahələr sənaye, neft-kimya məhsulları, tikinti, memarlıq, bərpa işləri, geniş diapazonlu məsələlərdir. Bir daha qeyd edirəm, bu, bizim dostluğumuzu və tərəfdaşlığımızı nümayiş etdirir.

**- İcazə verin, sonuncu sualımı verim. Azərbaycan fərqli ölkə olduğu üçün oradakı iqtisadi məsələlər haqqında eşitmək maraqlı idi. Beləliklə, Azərbaycan dünyada, Asiyada çox önəmli strateji mövqe tutur. O, nəinki enerji habına, eyni zamanda, Qərb və Şərq arasında, Çindən Avropaya qədər sanki bir kommersiya, nəqliyyat habına çevrilə bilər. Bu, iqtisadiyyatın şaxələndirilməsinin bir yolu da ola bilər, regionda sabitliyi təmin edə bilər. Eyni zamanda, bu, vəziyyətin sabitləşdirilməsi və sülhə nail olmaq üçün kömək edə bilər. Bu haqda nə düşündüklərinizi mənə deyə bilərsinizmi?**

- Mən sizin fikrinizlə tamamilə razıyam. Əslində, biz bunu Azərbaycanda ən azından son onillikdə fəal şəkildə həyata keçiririk. Azərbaycanı Avrasiyanın nəqliyyat habına çeviririk. Bu, asan iş deyil, çünki bizim açıq dənizə çıxışımız yoxdur. Biz, birinci növbədə, qonşularımızla yaxşı münasibətlərdə olmalıyıq. Çünki bu münasibətlər olmadan heç bir ölkə tranzit ölkəyə çevrilə bilməz. Bu imkanı yaxşı regional əməkdaşlıq mühiti, üstəgəl nəqliyyat infrastrukturuna investisiya yaratdı. Lakin bu, asan deyildi, çünki biz çoxlu sərmayə yatırmalı idik. Bu gün, məsələn, Azərbaycanda bizim altı beynəlxalq hava limanımız var və azad olunmuş ərazilərdə üç beynəlxalq hava limanımız var. Birinin açılışı artıq olub, ikisi də olacaq. Biz ölkəmizi bütün qonşu ölkələrlə birləşdirən dəmir yolu sistemini şaxələndirdik. Bizim müasir magistral yollarımız var. Yeri gəlmişkən, Davos Forumunun reytinqinə əsasən, Azərbaycan yolların keyfiyyətinə görə 27-ci, hava nəqliyyatı xidməti və dəmir yolu nəqliyyatı xidmətinə görə 11-ci və 12-ci yerdə qərarlaşıb. Beləliklə, bu, artıq baş verir. Biz artıq Mərkəzi Asiyadan gələn mallar üçün tranzit ölkəyə çevrilmişik. Çin də öz mallarını Avropa məkanlarına daşıyır. Üstəgəl, əlavə üstünlük ondan ibarətdir ki, Azərbaycan "Şimal-Cənub" nəqliyyat dəhlizi üzərində yerləşir. Bu dəhliz Şimali Avropa, Rusiya, Azərbaycan, İran və Fars körfəzindən keçir. Dəmir yolu və avtomagistral olmasından asılı olmayaraq, "Şimal-Cənub" dəhlizinin Azərbaycan seqmentində aparılan bütün tikinti işləri artıq tamamlanıb. Əlbəttə ki, İkinci Qarabağ müharibəsindən sonra hər yerdə artıq Zəngəzur dəhlizi adlandırılan yeni dəhlizi açmaq üçün imkan var. O, Azərbaycandan Ermənistana və oradan Azərbaycanın Naxçıvan Muxtar Respublikasına gedərək Türkiyə və Avropaya qədər uzanır, bu da nəqliyyat üçün alternativ marşrut olacaq. Üstəgəl biz Bakının yaxınlığında Ələt qəsəbəsində yerləşən azad iqtisadi zonanın yaradılması üzərində fəal çalışırıq. Bu zona gələn il fəaliyyətdə olacaq. Ümid edirik ki, bu coğrafi mövqe, artıq şaxələnmiş nəqliyyat şəbəkəsi bizə orada çalışmağa üstünlük verən investorları cəlb etməyə kömək edəcək. Beləliklə, nəqliyyat sektoru enerji sektorundan sonra aparıcı sektorlardan biri olacaq və bu komponentə yatırılmış investisiyalar, əlbəttə ki, çoxlu mənfəət gətirir. Mən üstəlik Xəzər dənizində ən böyük ticarət limanının açılışını qeyd edərdim. Onun yükaşırma gücü 25 milyon tona qədər arta bilər. Gəmiqayırma zavodunun tikintisi. Biz artıq özümüzü bütün növ yük gəmiləri, tanker və bərələrlə təmin edirik. Beləliklə, bu, həqiqətən də böyük aktivdir. Üstəgəl sizin qeyd etdiyiniz kimi, Azərbaycandakı sabitlik, etibarlılıq. Çünki biz heç vaxt heç bir müqaviləni pozmuruq, müqavilədə olan hətta bir sözü belə pozmuruq. Odur ki, bizim tərəfdaşlar bizə etibar edir və bütün qonşularımızla yaxşı münasibətlərimiz var. Əlavə olaraq, ümid edirik ki, Ermənistanla da münasibətlər normallaşacaq, dünən baş nazir Paşinyan və prezident Mişellə müzakirə etdiyimiz kimi. Onda Ermənistanın da regional nəqliyyat şəbəkəsinin üzvü olmağa imkanı olacaq, çünki indi o, çıxılmaz vəziyyətdədir. Onun Rusiya ilə dəmir yolu əlaqəsi yoxdur, olacaq. Onun İranla dəmir yolu əlaqəsi yoxdur, Azərbaycan ərazisindən olacaq. Azərbaycan Ermənistan ərazisindən Naxçıvan Muxtar Respublikasına gedəcək. Burada uduzan tərəf yoxdur. Hesab edirəm, Ermənistanda bu qızıl fürsəti həqiqətən dərk etməlidirlər ki, onlar daha da fəal hərəkət etsinlər və bu gələcək planlarda bizə qatılmaq üçün tərəddüd etməsinlər.

**- Çox sağ olun, cənab Prezident.**

-Təşəkkür edirəm.



# İlham Əliyev sosial islahatların yeni mərhələsinə start verdi

## Minimum əməkhaqqı 300 manat oldu

*Əvvəli 1-ci səh.*

Bu sənədə əsasən, 2022-ci il yanvarın 1-dən dövlət büdcəsindən maliyyələşən dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları orta hesabla 20, fiziki tərbiyə rəhbərlərinin aylıq vəzifə maaşları 30, gənclərin çağırışaqədərki hazırlıq rəhbərlərinin aylıq vəzifə maaşları 40 faiz artırılır. Bu iki sərəncam dövlət ümumi və peşə təhsili müəssisələrində çalışan 165 min işçini əhatə edir. Təhsil müəssisələrində çalışanların sosial müdafiəsinin gücləndirilməsi məqsədi daşıyan bu artımların edilməsi məqsədilə dövlət büdcəsində 273 milyon manat illik əlavə vəsait nəzərdə tutulub.

Prezident "Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" da sərəncam imzalayıb. Həmin təşkilatlarda çalışan rəhbər və digər işçilərin aylıq vəzifə maaşları da yanvarın 1-dən orta hesabla 20 faiz artırılır. Sərəncamda adı qeyd edilən təşkilatlar bunlardır: AMEA-nın Rəyasət Heyəti və Aparatı, Gəncə bölməsinin Aparatı, Heydər Əliyev Mərkəzi, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, Azərbaycanda Atatürk Mərkəzi, dövlət arxivləri və onların filialları, rayon (şəhər) dövlət arxivləri, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi. Daha sonra siyahıda Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin Aparatı, Maliyyə Nazirliyi yanında Maliyyə Elm-Tədris Mərkəzi, Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi, Mədəniyyət Nazirliyinin Dövlət Film Fondu, həmin nazirliyin tabeliyində fəaliyyət göstərən Quba şəhərində "Soyqırımı memorial kompleksi", Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyinin Aparatının adı qeyd olunur. Sözügedən sərəncamla həmçinin Səhiyyə Nazirliyinin Məhkəmə - Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi və Məhkəmə Psixiatrik Ekspertiza Mərkəzi, Təhsil Nazirliyinin Ərazi Maliyyə Hesablaşma Mərkəzi, Dövlət Turizm Agentliyinin Milli Kulinariya Mərkəzi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu, Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyindəki Bakı Şəhər Məktəbəqədər Təhsil müəssisələri və Uşaq Evləri İdarəsi, icra hakimiyyəti orqanlarının nəzdindəki mərkəzləşdirilmiş mühasibatlıq işçilərinin də vəzifə maaşları yeni il yanvarın 1-dən 20 faiz artırılır.

Deyilənlərə əlavə edək ki, son 4 ildə Azərbaycanda orta aylıq əməkhaqqında 37 faiz, median əməkhaqqında 74 faiz artım olub. Bu müddətdə əmək müqavilələrinin sayı 30 faiz artıb. Bütün bu müsbət proseslər nəticədə 4 il ərzində əməkhaqqı fondunda 92 faiz artıma imkan verib və həmin göstərici gələn il daha da artacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# BMT İlham Əliyevin daha bir qlobal təşəbbüsünü dəstəklədi

*Əvvəli 1-ci səh.*

Biz qlobal səviyyədə "peyvənd millətçiliyi" və vaksinlərin ədalətsiz bölgüsü haqqında danışan ölkələrdənik. Bəzi ölkələr artıq peyvəndin üçüncü dozasının tətbiqini planlaşdırır. Digər ölkələrdə isə vaksinasiyanın səviyyəsi aşağıdır. Beləliklə, biz bərabər imkanların yaradılması üçün bu məsələni müzakirə etməliyik".

### Azərbaycanın təşəbbüsü ilə məlumat bazası yaradılıb

Azərbaycanın təşəbbüsü ilə COVID-19-un müalicəsi ilə bağlı məlumat bazası yaradılıb və Ümumdünya Səhiyyə Təşkilatı Qoşulmama Hərəkatına üzv ölkələrdə həmin məlumat bazasından istifadə edir. Bu isə öz növbəsində ÜST-ə öz dəstəyini düzgün planlaşdırmağa və proqnozlaşdırmağa kömək edir.

Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan 80-dən artıq ölkəyə yardım edib. Yəni təmənnasız olaraq bir neçə ölkə peyvənd dozaları ilə təmin olunub. Eyni zamanda Azərbaycan yoxsul ölkələrin dəstəklənməsi üçün Ümumdünya Səhiyyə Təşkilatına könüllü olaraq 10 milyon dollar həcmində maliyyə yardımı edib.

Noyabrın 28-də isə Aşqabadda İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Toplantısı zamanı Prezident İlham Əliyev bir daha bu məsələyə toxunaraq vurğulayıb ki, Azərbaycan pandemiya ilə mübarizə sahəsində qlobal səylərin səfərbər edilməsi üçün mühüm addımlar atır: "Biz "peyvənd millətçiliyi"nin qəti şəkildə əleyhinə olduğumuzu daim vurğulayırıq".

Həmçinin Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə BMT-nin İnsan Hüquqları Şurası və BMT Baş Assambleyasında bütün ölkələr üçün peyvəndlərdən istifadə məqsədilə bərabər imkanların təmin olunmasına dair qətnamələr qəbul edilmişdi.

Dekabrın 16-da isə Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı adından irəli sürülmüş COVID-19 əleyhinə peyvəndlərə bütün ölkələrin bərabər, münasib, vaxtında və universal əlçatanlığının təmin edilməsi ilə bağlı qətnamə BMT Baş Assambleyasında 179 ölkənin dəstəyi ilə qəbul olunub.

Bu qətnamənin qəbul edilməsi ilə beynəlxalq ictimaiyyət Prezident İlham Əliyevin COVID-19 pandemiyasına, "peyvənd millətçiliyi"nə qarşı təşəbbüslərini bir daha dəstəklədiyini nümayiş etdirdi.

Göründüyü kimi, Azərbaycan Qoşulmama Hərəkatının sədri qismində COVID-19 pandemiyasına qarşı mübarizə naminə beynəlxalq səylərin səfərbər edilməsi sahəsində qlobal liderliyini davam etdirir. Pandemiya qarşısında dünya ölkələrinin əksəriyyətinin özünə qapandığı dövrdə Azərbaycan qlobal liderlik rolunu üzərinə götürərək bu bəlanın öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkələrdəndir.

Qoşulmama Hərəkatına sədrlik etdiyi dövrdə Azərbaycan Prezidentinin "peyvənd millətçiliyi"nə, varlı və kasıb ölkələr arasında vaksinasiyaya əlçatanlıqla bağlı getdikcə dərinləşən qeyri-bərabərliyə qarşı mübarizəni daim gündəlikdə saxlaması, Azərbaycanın indiyədək 80-ə yaxın ölkəyə birbaşa və ÜST xəttilə maliyyə və humanitar yardım etməsi, bir sıra ölkələrə təmənnasız olaraq COVID-19 əleyhinə vaksinlər göndərməsi beynəlxalq ictimaiyyət tərəfindən təqdir edilir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Ermənistanın geriyə yolu yoxdur

*Əvvəli 1-ci səh.*

Bu görüşün isə nə ilə bitdiyini bilmək üçün Şarl Mişelin Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri N.Paşinyanla keçirilən üçtərəfli görüşdən sonra verdiyi bəyanatda aydın görünür. Şarl Mişelin bəyanatında vurğulanır ki, regionda bütün kommunikasiyalar açılmalı, dəmir yolu xətti çəkilməlidir. Ən başlıcası isə odur ki, Avropa İttifaqı Şurası da Ermənistanı 2020-ci ilin 10 noyabr, 2021-ci ilin 11 yanvar və 26 noyabr görüşləri və bəyanatlarından irəli gələn öhdəlikləri yerinə yetirməyə çağırdı. Bu bəyanatdan o da aydın oldu ki, Avropa İttifaqı Şurası Azərbaycanın beynəlxalq qanunlara və ədalətə söykənən haqlı mövqeyini müdafiə edir.

Ermənilərin ən çox siyasi manevrlər etmək istədiyi məsələ Zəngəzur dəhlizidir. Onlar danışıqlar zamanı bu dəhlizin açılması ilə özlərinə birtərəfli dividendlər əldə etmək istəyirdilər. Lakin bu məsələdə də Pezident İlham Əliyevin mövqeyi qəti idi: Zəngəzur dəhlizi bütün tərəflərin maraqlarına cavab verməlidir. Azərbaycanın dövlət başçısının bu ədalətli mövqeyi İrəvanın həm iqtidar, həm də müxalifət düşərgəsinə şok yaşatdı. Amma Ermənistanın ilk prezidenti olmuş Levon Ter-Petrosyanın dediyi kimi, artıq "heç kəsi Ermənistanın fikri maraqlandırmır"dı.

Zəngəzur dəhlizi ilə bağlı qəti mövqeyini NATO-nun baş katibi Yens Stoltenberglə keçirdiyi birgə mətbuat konfransında da bildirən İlham Əliyev "Azad Avropa" radiosunun müxbirinin analoji sualını belə cavablandırmışdır: "Zəngəzur dəhlizi ilə bağlı demək istərdim ki, regionda bu kommunikasiyaların açılması təklifi ötən il noyabrın 10-da Rusiya Prezidenti, Ermənistanın baş naziri və mənim tərəfimdən imzalanmış üçtərəfli Bəyannamədə öz əksini tapıb. Beləliklə, bütün lazımi şəraiti təmin etmək Ermənistan üçün bir növ öhdəlikdir".

Dövlət başçısının "Zəngəzur dəhlizinin hüquqi rejiminə gəlincə, o Laçın dəhlizinin eynisi olmalıdır" bəyanatı da ermənilərin Zəngəzur dəhlizi ilə bağlı ikili standartına son qoydu. Bununla Ermənistanın Laçın dəhlizindən Azərbaycanın nəzarəti olmadan istifadə etməsi fonunda Zəngəzur dəhlizinə nəzarət etmək istəyinin baş tutmayacağı təkcə İrəvanın yox, regionda marağı olan tərəflərin hamısına bəyan edildi.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Baş nazir Əli Əsədov Heydər Əliyev adına neft emalı zavodunda aparılan modernləşdirmə və yenidənqurma işləri ilə tanış olub

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 18-də Dövlət Neft Şirkətinin Heydər Əliyev adına neft emalı zavodunda aparılan modernləşdirmə və yenidənqurma işləri ilə tanış olub.





Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aparılan işlərlə tanışlıqdan sonra Baş nazirin sədrliyi və Dövlət Neft Şirkətinin Müşahidə Şurası sədrinin və üzvlərinin, şirkətin prezidentinin iştirakı ilə müşavirə keçirilib.

Müşavirədə modernləşdirmə və yenidənqurma işlərinin cədvələ uyğun aparılması məsələsi diqqət mərkəzində olub, görülən və görüləcək işlər müzakirə edilib.

Qarşıda duran məsələlər müəyyən edilərək müvafiq işlərin vaxtında və tam şəkildə həyata keçirilməsi ilə bağlı tapşırıqlar verilib.

# Nazir Sahil Babayev media qurumlarının rəhbərləri ilə görüşüb





Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev media qurumlarının rəhbərləri ilə görüşüb. 4 saylı DOST Mərkəzində keçirilən görüşdə 50-dək media təşkilatı və KİV rəhbəri iştirak edib.

AZƏRTAC xəbər verir ki, S.Babayev nazirliyin fəaliyyətində ictimaiyyətlə əlaqələrin təşkilində media ilə sıx əməkdaşlığa xüsusi önəm verildiyini bildirib. Sosial islahatlarla, əmək, məşğulluq, sosial müdafiə, əlillik və reabilitasiya sahələrində görülən işlərlə bağlı ictimaiyyətin məlumatlandırılmasında, sosial maarifləndirmədə medianın mühüm rolunu vurğulayıb.

O qeyd edib ki, nazirlik hər gün media ilə sıx təmasda fəaliyyət göstərir, qurumun fəaliyyəti mütəmadi olaraq mediada əksini tapır. Hazırkı görüş də müvafiq mövzularda media orqanları rəhbərləri ilə fikir mübadiləsi aparmaq, sosial sahədə görülən işlərin nəticələri ilə bağlı məlumat vermək, onların rəy və təkliflərini dinləməkdir.

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, Mətbuat Şurasının sədri Əflatun Amaşov, "Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənov, Azərbaycan Jurnalistlər Birliyinin sədri, "Ayna-Zerkalo" qəzetinin təsisçisi və baş redaktoru Elçin Şıxlı bu kimi görüşlərin əhəmiyyətini vurğulayıblar.

Görüş zamanı qeyd olunub ki, vətəndaş rifahının təminatı Prezident İlham Əliyevin siyasətinin ana xəttini təşkil edir. Dövlət başçısının yeni imzalanan sərəncamları da bunun əyani nümunəsi olmaqla, 1 milyonadək işçinin əməkhaqqının artırılmasını təmin edir. Bu artım üçün illik 742 milyon manat əlavə vəsait ayrılıb. Bu artımlarla Prezidentin 2021-ci il 16 oktyabr tarixli sərəncamı əsasında sosial islahatların yeni mərhələsi başlanır. Yeni islahat mərhələsi 2,1 milyondan çox vətəndaşın rifahına dəstək olacaq. Bunun üçün illik əlavə 1,5 milyard manat nəzərdə tutulub.

Ümumən son 4 ildə minimum əməkhaqqı 2,3 dəfə, orta aylıq əməkhaqqı 37 faiz, median əməkhaqqı 74 faiz, əməkhaqqı fondu 92 faiz artıb. Minimum pensiyada 82 faiz, orta aylıq pensiyada 60 faiz, müavinət və təqaüdlərdə orta hesabla iki dəfə artım baş verib.

2018-2021-ci illərdə sosial təminat üzrə illik xərclər 60 faiz və ya 2,4 milyard manat artaraq 6,4 milyard manata çatıb. Sosial təminatla əhatə olunanlar isə 160 min nəfər artaraq 2,56 milyon nəfərə çatıb. Qeyd edilən dövrdə 152 min şəxsə isə əlillik dərəcəsi təyin olunub, əlilliyi olan şəxslərə 150 minə yaxın reabilitasiya vasitəsi verilib.

Aktiv məşğulluq proqramları dəfələrlə, o cümlədən özünüməşğulluq proqramı 15 dəfə genişlənib. DOST konsepsiyası, innovativ həllərin tətbiqi sahəsində nailiyyətlər də diqqətə çatdırılıb.

Postmüharibə dövründə şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları, erməni terrorundan zərər çəkənlər sosial dəstəklə təmin olunur. Bu dəstək tədbirləri çərçivəsində 40 min şəxsə 46 min xidmət göstərilib. O cümlədən şəhid ailələrinin üzvləri və müharibə əlilləri olan 10351 şəxsə 20644 sosial ödəniş təyin edilib. Onlar üçün sosial ödənişlərin məbləği 2021-ci ilin əvvəlindən növbəti dəfə əhəmiyyətli şəkildə artırılıb. Şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı proqramı 2021-ci ildə 5 dəfə genişlənib və bu il də onlara 3 min mənzil/fərdi ev verilməsi nəzərdə tutulub ki, onlardan artıq 2700 mənzil təqdim edilib.

Görüşdə KİV nümayəndələrinin aparılan sosial islahatlarla bağlı rəy və təklifləri dinlənilib. Əmək və məşğulluq, sosial təminat, idarəçilik və elektronlaşma, postmüharibə dövründə dəstək tədbirləri, əlillik və reabilitasiya məsələləri və s. ilə bağlı fikir mübadiləsi aparılıb.

# Azərbaycanın Brüssel uğuru ölkəmizin beynəlxalq mövqelərini daha da gücləndirdi

*Əvvəli 1-ci səh.*

Qurumun hətta iqtisadi və investisiya resursları vasitəsilə bu layihələri dəstəkləyəcəyi də vurğuladı. Bəyanatda dəmir yolu xəttinin çəkilməsi məsələsinə xüsusi toxunuldu. Həmçinin dəmir yollarında gömrük və sərhəd nəzarətinin qarşılıqlılıq prinsipi əsasında təşkil olunacağı diqqətə çatdırıldı.

Bu, Azərbaycanın daha bir mühüm diplomatik qələbəsi, ölkəmizin mövqeyinin Avropada dəstəklənməsi deməkdir. Brüsseldə üçtərəfli görüşdən əvvəl Prezident İlham Əliyev NATO-nun Baş katibi Yens Stoltenberqlə birgə mətbuat konfransında açıq şəkildə bildirdi ki, Zəngəzur dəhlizinin hüquqi rejimi Laçın dəhlizinin eynisi olmalıdır: *"Zəngəzur dəhlizinin hüquqi rejiminə gəlincə, o, Laçın dəhlizinin eynisi olmalıdır. Çünki üçtərəfli Bəyanatda açıq-aydın deyilir ki, Azərbaycan Qarabağla Ermənistan arasında əlaqə üçün təhlükəsizliyi və maneəsiz çıxışı təmin edir və Ermənistan Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasında əlaqələr üçün eyni maneəsiz çıxış və təhlükəsizliyi təmin etməlidir. Beləliklə, bu gün Laçın dəhlizində gömrük yoxdur. Ona görə də Zəngəzur dəhlizində də gömrük olmamalıdır. Əgər Ermənistan yük və insanlara nəzarət etmək üçün öz gömrük qurumlarından istifadədə israr etsə, onda biz Laçın dəhlizində eynisində israr edəcəyik. Bu, məntiqidir və qərar Ermənistan tərəfindən qəbul edilməlidir. Biz hər iki varianta hazırıq, ya hər ikisində heç bir gömrüyün olmaması, ya da hər ikisində hər iki gömrüyün olması. Bağlılığa gəlincə, regional nəqliyyat əlaqələrinin inteqrasiyası həqiqətən də region üçün böyük imkandır. Çünki Zəngəzur dəhlizi təkcə bizim Naxçıvan Muxtar Respublikasına çıxış əldə etməyimiz üçün deyil, həm də Ermənistanın Naxçıvan Muxtar Respublikası vasitəsilə İranla dəmir yolu əlaqəsi üçündür. Bununla həmçinin Ermənistan da Naxçıvan Muxtar Respublikası vasitəsilə İranla dəmir yolu əlaqəsi əldə etdi".*

Bu yanaşma üçtərəfli görüşdən sonra Şarl Mişelin yaydığı bəyanatda da əks olunub. Göründüyü kimi, Azərbaycan Zəngəzur dəhlizinin hüquqi-iqtisadi reallaşması istiqamətində məqsədinə nail olur, bu prosesdə Rusiyadan sonra Avropadan da tam dəstək alır. Avropa İttifaqı iqtisadi və investisiya resursları vasitəsilə Zəngəzur dəhlizinə və digər kommunikasiya xətlərinin işə düşməsinə yardım etməyə hazır olduğunu bildirir. Azərbaycanın yanaşması bundan ibarətdir ki, regional nəqliyyat əlaqələrinin inteqrasiyası Cənubi Qafqaz üçün böyük imkandır. Brüssel danışıqlarında Ermənistan öz ərazisindən dəmir yolu xəttinin çəkilməsi ilə bağlı üzərinə düşən öhdəliyi təsdiq edib. Ermənistanın baş naziri Nikol Paşinyan bu xüsusda qeyd edib: "Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Azərbaycan Prezidenti İlham Əliyevlə keçirilən üçtərəfli görüşdə Azərbaycan Prezidenti ilə dəmir yolunun bərpa olunması barədə razılığı təsdiqlədik".

Bu da o deməkdir ki, Ermənistan ərazisindən keçəcək dəmir yolu vasitəsilə Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa nəqliyyat əlaqəsi yaradılacaq. Ermənistan bununla bağlı olaraq Qərbi Zəngəzur ərazisində dəmir yolu xəttinin bərpa və çəkilişinə başlayacaq. Qərbi Zəngəzurda çəkilən bu dəmir yolu xətti perspektivdə Horadiz-Ağbənd dəmir yolu ilə birləşəcək. Bununla ölkəmizin qərb rayonlarından Naxçıvana, buradan da Türkiyəyə birbaşa dəmir yolu əlaqəsi yaranacaq.

Azərbaycan və Ermənistan liderləri dəmir yolu ilə yanaşı, Zəngəzur dəhlizindən keçən magistral yolun inşası məsələsini də müzakirə ediblər. Bu məsələ reallaşandan sonra Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında nəqliyyat vasitələrinin və yüklərin maneəsiz hərəkəti mümkün olacaq. Zəngəzur dəhlizinin açılması, digər kommunikasiya əlaqələrinin bərpası istiqamətində Azərbaycanın atdığı addımlar regionda sülh və əməkdaşlığa ölkəmizin verdiyi mühüm töhfədir və bu, Avropa İttifaqı tərəfindən də tam dəstəklənir.

Zəngəzur dəhlizi "Şərq-Qərb" nəqliyyat dəhlizinin əhəmiyyətini yüksəltməklə yanaşı, Azərbaycanın Avrasiya məkanında tranzit ölkə kimi əhəmiyyət və imkanlarını daha da artıracaq.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# REGİONLAR



## AMEA Naxçıvan Bölməsi ilə Ümumdünya Təbiəti Mühafizə Fondu arasında əməkdaşlıq inkişaf edir

Ümumdünya Təbiəti Mühafizə Fondunun Azərbaycan nümayəndəliyinin direktoru Elşad Əsgərov AMEA Naxçıvan Bölməsinin qonağı olub.

Bölmənin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, yığıncaqda çıxış edən Naxçıvan Bölməsinin sədri akademik İsmayıl Hacıyev dünya üzrə biomüxtəlifliyin deqradasiyası probleminin artdığını və bu məsələyə dünya dövlətlərinin diqqətli yanaşmalı olduğunu deyib. Bu qlobal təbiət probleminin əksinə olaraq Naxçıvan Muxtar Respublikası ərazisində bitki və heyvanat aləminin zənginləşdiyini diqqətə çatdıran İsmayıl Hacıyev bildirib ki, yaşıllıqların artırılması, meşə örtüyünün ilbəil genişləndirilməsi, heyvanların ovlanmasına qadağaların qoyulması biomüxtəlifliyin zənginləşməsinə səbəb olub. Muxtar respublika ərazisində təbiətin mühafizəsi istiqamətində görülən işlər, ekspedisiyaların təşkilinə dəstəkdən bəhs edən alim göstərilən diqqət və qayğıya görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

Akademik deyib ki, heyvanların sayında müşahidə edilən artımın müntəzəm izlənilməsi, qeydlərin aparılması, dünyaya çatdırılması Ümumdünya Təbiəti Mühafizə Fondunun Azərbaycan nümayəndəliyi ilə AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun əməkdaşlığının səmərəli fəaliyyətinin nəticəsidir.

Naxçıvanda olmaqdan məmnunluq ifadə edən Ümumdünya Təbiəti Mühafizə Fondunun Azərbaycan nümayəndəliyinin direktoru Elşad Əsgərov bildirib ki, layihənin reallaşması ideyası məhz axtarışlar zamanı ilk dəfə olaraq Ordubad rayonu ərazisində bəbirin qeydə alınması ilə başlayıb, sonradan bu areal daha da genişlənib. Nümayiş olunan təqdimat vasitəsilə görülən işlər, əldə olunan uğurlar, gələcəkdə həyata keçirilməsi nəzərdə tutulan planlar barədə məlumat verən Elşad Əsgərov çöl ekspedisiyaları zamanı istifadə olunan fototələlərdən və GPS xaltalardan bəhs edib.

Sonda Elşad Əsgərov tədbir iştirakçılarının suallarını cavablandırıb.



## Üzümçü fermerlər üçün təlim keçirilib

Kənd Təsərrüfatı Nazirliyi Üzümçülük və Şərabçılıq Elmi Tədqiqat İnstitutunun mütəxəssisləri tərəfindən Siyəzən rayonunda üzümlük bağının ərazisində fermerlər üçün "Üzümlüklərdə yüksək məhsuldarlığın təməli quru budama texnologiyasından asılıdır" mövzusunda təlim təşkil edilib.

Təlimdə bildirilib ki, üzüm məhsulunun həcminə və keyfiyyətinə təsir göstərən mühüm aqrotexniki tədbirlərdən biri budamadır. Əsas vəzifə kolların böyüməsini və məhsuldarlığı nizamlamaqdır ki, hər il müntəzəm olaraq konkret şəraitdə keyfiyyətli və bol məhsul almaq mümkün olsun. Noyabrda üzümlüklərdə yarpaqlar töküləndən 15-20 gün sonra (noyabrın 15-20-dən sonra) budama işlərinə başlanılmalıdır. Respublikanın aran rayonlarında budamanı yarpaqların tökülməsindən 15-25 gün sonra - noyabr ayının ikinci yarısında başlayıb (yarpaqların tökülməsini nəzərə almaqla), fevral ayının axırlarına qədər qurtarmaq lazımdır. Payızda yarpaqlar töküləndən yazda tumurcuqlar şişməyə başlayana qədər tənəyin birillik zoğlarında maksimum miqdarda ehtiyat plastik qida maddələri olur. Yarpaqlar töküləndən sonra plastik qida maddələri birillik zoğlardan tənəyin çoxillik hissələrinə və köklərinə axaraq ehtiyat qida maddələri şəklində toplanır. Ehtiyat qida maddələrinin bu hərəkəti yarpaqlar töküləndən 15-20 gün sonra dayanır. Bundan sonra budamaya başlamaq olar.

Birinci budama payızda, tənəklər torpaq altına basdırılmamışdan əvvəl aparılır. Bu zaman ancaq uzun zoğlar qısaldılır. Lazımsız və yetişməmiş zoğlar kəsilərək kənar edilir ki, tənək torpağa basdırılsın və yazda torpaqdan asan, zoğlar zədələnmədən çıxarılsın.

İkinci budama isə yazda, tənəklər torpaq altından çıxarılandan sonra aparılır. Tənəklərin budanması ilə yanaşı, çubuq tədarükünə də başlanılmalıdır. Bunun üçün aprobasiya və kütləvi seleksiya aparılmış standart sort sahələrində, ilk növbədə, nişanlanmış qarışıq sortlar və mənfi xassəli, məhsulsuz, azməhsuldar, xəstəliyə tutulmuş tənəklər budanır, zoğlar cərgələr arasından çıxarılıb yandırılır. Bundan sonra yerdə qalan təmiz sortlu və məhsuldar tənəklər budanaraq çubuq tədarük edilir.

Budama zamanı çubuqların buğumların normal uzunluqda olması vacibdir. Çox qısa və çox uzun buğumarasına malik olan zoğlardan bar budaqlarının və əvəzedici çiliyin saxlanılması məqsədəuyğun deyil. Həmçinin budama zamanı birillik zoğların dib gözlərinin barvermə xüsusiyyətləri də nəzərə alınmalıdır. Çünki adətən ikiillik zoğa çox yaxın olan 1-2 göz "kor gözlər" adlanır və onlardan çıxan zoğlar barsız olur. Ona görə də budama zamanı bu gözcüklər göz sayında nəzərə alınmır.

Təlim zamanı qeyd edilən məsələlər praktiki olaraq yerinə yetirilərək göstərilib, rast gəlinən xəstəlik və zərərvericilərə qarşı görülən mübarizə tədbirləri haqqında da məlumatlar verilib.

## Şəkidə indiyədək 62 min hektardan çox sahədə payızlıq səpin aparılıb

Ölkənin ən iri taxılçılıq rayonlarından olan Şəkidə 2022-ci ilin məhsulu üçün payızlıq dən bitkilərinin səpini yekunlaşmaq üzrədir.

Cari il rayonda gələn ilin məhsulu üçün 66 min 100 hektar sahədə payızlıq dənli bitkilərin səpini proqnozlaşdırılır. Torpaq mülkiyyətçiləri indiyədək 32 min 108 hektarı buğda, 29 min 997 hektarı dən üçün arpa olmaqla, 62 min 105 hektar sahəyə toxum səpiblər. Bu barədə AZƏRTAC-a Şəki Dövlət Aqrar İnkişaf Mərkəzinin bitkiçilik sektorunun müdiri Sahib Abdulhəmidov məlumat verib.

Bildirilib ki, səpin aparılacaq sahələrin şumlanması artıq yekunlaşıb. Səpin kampaniyasının yaxın günlərdə başa çatdırılması nəzərdə tutulur. Hazırda payızlıq taxıl səpilmiş sahələrdə müvafiq qurumlar tərəfindən fitosanitar müşahidə və zərərvericilərə qarşı kimyəvi mübarizə tədbirləri aparılır, sahələr suvarılır.

## Ağdaşda mal-qaranın cins tərkibi yaxşılaşır

Ağdaş rayonunda mal-qaranın cins tərkibinin yaxşılaşdırılaraq daha məhsuldar heyvanlarla əvəz edilməsi, bu sahədə süni mayalandırmanın imkanlarından səmərəli istifadə olunması istiqamətində tədbirlər davam etdirilir.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a bildirilib ki, hazırda Ağdaşda 75 min 800 baş iribuynuzlu mal-qara var. Cari ilin on bir ayında 7228 baş inək-düyə süni yolla mayalandırılıb. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 375 baş çoxdur. On bir ayda heyvandarlar 3640 baş cinsi yaxşılaşdırılmış buzova sahib olublar. Bu buzovların sayı da ötən ildəkinə nisbətən 184 baş artıb.

Qeyd edək ki, hazırda rayonda 13 nəfər ixtisaslı süni mayalandırma texniki var.

## Quraqlıq suya qənaət rejimini növbəti dəfə aktual etmişdir



### Bu hesaba Hacıqabulda payızlıq əkinlərin suvarılmasında ciddi problem olmur

Su bolluqdur. Amma bu da sirr deyil ki, son 2-3 il ərzində torpaq mülkiyyətçiləri, fermerlər, sahibkarlar əkib-becərdikləri sahələri nəinki vaxtında, hətta gecikmə ilə belə suvarmaqda çətinliklərlə qarşılaşmalı olurlar.

Bu, ilk növbədə, ölkədə su mənbələrinin az olması və havaların quraq keçməsi ilə bağlıdır. Halbuki çox yox, 5-6 il öncə payızda əkilən taxıl və yoncanı suvarmaq o qədər də lazım olmazdı. Kifayət qədər yağan yağışlar sahələrin hər yerində normal çıxış almağa bəs edirdi. Növbəti ilin fevral ayının ikinci ongünlüyündən sonra əvvəlcə yoncalıqlar, ardınca da taxıl suvarılardı.

Özlərini əziyyətə verən, suyun qədrini bilən, hər hektardan daha yüksək məhsul götürmək istəyən torpaq mülkiyyətçiləri indi də belə edirlər. Bu işdə isə həmin ərazidə yerləşən təşkilatlar, qurumlar onların ən yaxın yardımçılarıdır. Hacıqabul Rayon Suvarma Sistemləri İdarəsinin kollektivi öz fəaliyyətini bu istiqamətdə qurmağa səy göstərir.

Cari ilin payızında gələn ilin məhsulu üçün 13 min 400 hektarda taxıl, 223 hektarda yonca toxumları səpini nəzərdə tutulmuşdur. Payızlıq əkinlərin müəyyən səbəblərdən optimal müddətdə başa çatdırılması geciksə də, onun yekunlaşdırılması mümkün olmuşdur. Belə gecikmə mütəxəssislərin rəyinə görə, gələn ilin məhsuldarlığına təsirsiz ötüşməyəcək. Toxum səpilən sahələrin suvarılmasına gəldikdə isə onu demək olar ki, melioratorlar əkinçilərdən daha çevik hərəkət edirlər. Yəni intensiv suvarma işləri onların səyi nəticəsində aparılır. Artıq su içmiş sahələrdə cücərti alınmış, havaların xoş keçdiyi günlərdə inkişaf edərək boz torpağın üstünü yaşıllığa bürümüşdür.

Xatırladaq ki, Meliorasiya və Su Təsərrüfatı ASC tərəfindən aparılan struktur islahatları nəticəsində rayon ərazisində qış otlaqlarını su ilə təmin edən qurum ləğv edilərək rayon suvarma sistemləri idarələrinin tərkibinə verilmişdir. Bununla Hacıqabul rayonu ərazisindəki 77 min 557 hektarda qışlama keçirən heyvandarlıq təsərrüfatlarının su ilə təminatı bu qurumun öhdəsinə düşmüşdür. Suvarma idarəsi hər iki sahədə işin öhdəsindən gəlmək üçün kanalların lildən, kol-kosdan təmizlənməsi, hidrotexniki qurğuların, nasos stansiyalarının saz vəziyyətdə saxlanılması istiqamətində ardıcıl tədbirlər həyata keçirir.

Ümumiyyətlə, başa çatmaqda olan cari il ərzində rayon ərazisində 264 kilometr kanal lildən təmizlənmişdir ki, bunun da 39,8 kilometri Abdulabad, 29,3 kilometri Meyniman, 15,1 kilometri Ələtli, 143,4 kilometri Navahı, 36,3 kilometri Rəncbər, 5,7 kilometri Qarasu-Padar kəndlərinin payına düşür. Eyni zamanda Meyniman kənd ərazisi üzrə su itkisinin qarşısının alınması üçün torpaq məcralı Qobu-1 kanalının 1,5 kilometrlik hissəsi betonla üzlənmiş, üzərindəki 10 hidrotexniki qurğu əsaslı təmir olunaraq saz vəziyyətə gətirilmişdir. İl ərzində ümumilikdə 66 hidrotexniki qurğuda, 42 kilometr boru xəttində, 2 mülki və istehsalat binasında, 3 nasos stansiyasında cari təmir işləri görülmüşdür. Əsaslı təmir işləri üzrə MV-1 boru kəmərinin 1,4 kilometrlik hissəsi 200 mm-lik polietilen borudan çəkilmişdir. Nasos stansiyalarının elektrik və mexaniki avadanlıqları təmir olunmuş, qurğular suvarma mövsümünə kimi tam işlək vəziyyətə gətirilmişdir.

Rayonda Ədliyyə Nazirliyinin qeydiyyatından keçmiş 6 "Sudan istifadə edənlər Birliyi" fəaliyyət göstərir ki, onlar da su ayrıclarından suyu müqavilələr əsasında qəbul edərək növbəliliklə su istifadəçiləri arasında paylayırlar. Cari il idarə üzrə 75 min 200 manat həcmində sudan pullu istifadə planlaşdırılmışdır. Ödəmələr istehlakçılar tərəfindən əsasən elektron qaydada aparılmışdır. Dekabr ayının birinci ongünlüyünədək əkin sahələrinin suvarılmasına görə birliklər tərəfindən dövlət büdcəsinə 44 min 200, qış otlaqlarının su təminatında 31 min manat ödənilmişdir ki, bu da proqnozun 100 faizini təşkil edir.

Uğurlar daha çox ola bilərdi. Lakin keçən il havaların quraqlıq keçməsi nəticəsində mənbəyini Böyük Qafqazdan götürən Pirsaat çayında suyun az olması ucbatından Navahı, Atbulaq, Rəncbər kəndləri ərazisində əkinləri suvarmaq mümkün olmamışdı. Yaranmış vəziyyətlə əlaqədar hökumət səviyyəsində tədbirlər görülərək 2020-ci ilin avqust ayında Kür çayından boru ilə su gətirilmiş və ərazidə 4 min 800 hektar sahədə yaradılmaqda olan "Aqropark", habelə oradakı pay torpaqları qismən suvarma suyu ilə təmin edilmişdir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Belə getsə, Sumqayıt bulvarı paytaxtın Dənizkənarı parkından geri qalmayacaq



**Xəzərin sahilini özünə məkan seçmiş Sumqayıt bu gün tarixinin yeni səhifələrini yazır. Şəhər salınanda, onun sonrakı inkişaf mərhələlərində heç kimin ağlına gəlməzdi ki, bir zaman keçmiş SSRİ-nin ekoloji cəhətdən ən çirkli şəhəri hesab edilən Sumqayıt vaxt gələcək təkcə Azərbaycanın yox, regionun ən təmiz, ən abad sənaye mərkəzlərindən olacaq.**



Buna əmin olmaq üçün Sumqayıt bulvarını gəzmək bəs edir. 2016-cı ildə yaradılan və onun açılışını edən Prezident İlham Əliyev buranı bir möcüzə kimi dəyərləndirmişdir. Həmin zamandan etibarən Sumqayıt bulvarı yerli sakinlərin və qonaqların sevimli məkanına çevrilib.

Sumqayıt bulvarının uzunluğu 5 kilometrə yaxındır. Dəniz səviyyəsindən 2,5 metr yüksəklikdə yerləşən bulvarda 55 hektar yaşıllıq zolağı salınıb. 160 mindən çox ağac və dekorativ kol, 2 milyondan artıq gül və çiçək əkilib. Həmçinin 76 hektar ərazidə kommunikasiya xətləri çəkilib, müxtəlif ölçülü 1500 işıq dirəyi və işıqlandırma sistemləri quraşdırılıb, sakinlərin rahat istirahəti üçün 600-dən artıq oturacaq qoyulub. Bulvarın ərazisində müxtəlif yerlərdə 50 kölgəlik yaradılıb, 5 rəngli fontan inşa edilib, velosipedçilər üçün xüsusi hərəkət zolağı və piyada yolu salınıb, 5 kilometr yola asfalt döşənib, 30 hektar əraziyə daş döşənib.

Bunlardan əlavə, ərazidə Bayraq meydanı, sahildə gəzinti gəmilərinin yan alması üçün dənizin içərisinə doğru 500 metr uzunluğunda tərsanə tikilib. Bulvardakı Bayraq muzeyi və Muğam evi də gəzintiyə gələnlərin ən çox təşrif buyurduqları məkanlardır.

Bulvarda kiçik ölçülü gəzinti avtobusları üçün avtomobil yolu da salınıb. Elektriklə işləyən bu nəqliyyat vasitələrində gəzmək xüsusi zövq verir. Həmçinin kafe-çay evləri, istirahət obyektləri, attraksionlar, kinoteatr, tennis kortu, futbol meydançaları, yay musiqi səhnəsi, ticarət və uşaqlar üçün əyləncə mərkəzləri yaradılıb. Hazırda Sumqayıt bulvarının genişləndirilməsi və orada yaşıllaşdırma işləri davam etdirilir və yaxın gələcəkdə bulvarın ərazisinin bir neçə hektar genişləndiriləcəyi nəzərdə tutulur.

Bu gün isə bulvarın yaxınlığında pansionatlar, hotellər və istirahət mərkəzləri tikilir. Bütün bunlar yaxın gələcəkdə şəhər turizminin inkişaf edəcəyinə hesablanıb. Şəhərin beynəlxalq əlaqələrinin genişlənməsi isə bu prosesə əlavə güc verəcək. Sumqayıtın hazırda dünyanın onlarca şəhəri ilə qarşılıqlı ticarət əlaqələri var. Ümumiyyətlə, son 10 ildə Sumqayıtın beynəlxalq əlaqələri xeyli genişlənib. Almaniya, Bolqarıstan, Rumıniya, İtaliya, Rusiya, Belarus və digər ölkələrdə Sumqayıt yaxşı tanınır. Yeri gəlmişkən qeyd edək ki, Sumqayıt bulvarı Avropada keçirilən onlarca yarışmada uğura imza atıb və o, xüsusi zonalar siyahısına salınıb.

Sumqayıtda turizmin inkişafına təkan verən cəhətlərdən biri də şəhərin sənaye potensialının yenilənməsidir. Bu gün Sumqayıtda sovet dönəmində olduğu kimi, zavodların bacalarından müxtəlif rəngli zəhərli tüstü çıxmır. Artıq Sumqayıt ölkəmizin təmiz havaya malik olan şəhərlərindən sayılır, tullantısız sənaye mərkəzi hesab olunur.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***



## Tovuzlu qazi Türkiyədə müalicə aldıqdan sonra Vətənə dönüb

2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən atəşkəs rejiminin sərhədin Tovuz istiqamətində pozulması zamanı həmin rayonun Hacıalılı kənd sakini Nəsirov Kənan Fizuli oğlu ağır yaralanmışdır.

"YAŞAT" Fondunun qardaş Türkiyəyə göndərdiyi qazi müalicə aldıqdan sonra evinə dönmüşdür. Tovuz rayon rəhbərliyi, YAP Tovuz rayon təşkilatının, eləcə də ictimaiyyətin digər nümayəndələri bu günlər Kənan Nəsirovun evində olmuş, onun müalicədən sonrakı səhhəti ilə maraqlanmışlar.

Çay süfrəsi arxasında keçən söhbət zamanı qeyd olunmuşdur ki, Tovuz döyüşləri Azərbaycan tarixinin ən şanlı səhifələrindən biridir. Çünki bu döyüşlərdən sonra düşmənin növbəti təxribatının qarşısını almaq üçün Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində Ermənistan ordusunu darmadağın edərək torpaqlarımızı işğaldan azad etmişdir.

Qazi Kənan Nəsirov onun müalicəsinə göstərilən diqqət və qayğıkeşliyə görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlığını bildirmiş və diqqətə çatdırmışdır ki, artıq onun səhhətində elə bir ciddi problem yoxdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Ağcabədidə "Motivasiya" təlimi çərçivəsində gənclərlə görüş olub

Gənclərin İnkişaf və Karyera Mərkəzinin Ağcabədi nümayəndəliyində "Motivasiya" təlimi çərçivəsində rayon gəncləri ilə görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, təlim təhsil və icma quruculuğu sahəsində ixtisaslaşan "Resource HUB" tərəfindən həyata keçirilən Almaniyanın MOCI-Qafqaz platforması çərçivəsində "Təlimçilər üçün təlim" proqramından keçən yeni təlimçi, Gənclərin İnkişaf və Karyera Mərkəzinin Ağcabədi nümayəndəliyinin ictimaiyyətlə əlaqələr üzrə mütəxəssisi Ləman Zeynalova tərəfindən baş tutub.

Təlim zamanı iştirakçılara "Motivasiya nədir", "Motivasiya necə yaradılır", "Motivasiyanın hansı növləri var" kimi mövzularla bağlı məlumatlar verilib. Həmçinin müxtəlif oyunlar və kiçik yarışlar təşkil edilib. Gənclər əylənərək öyrənib, asudə vaxtlarını səmərəli keçiriblər.

Təlimdə Ağcabədi rayon Xocavənd kənd 1 nömrəli məktəbin peşə təmayüllü siniflərinin şagirdləri qonaq olub.





# Vətən deyəndə...





● Qarabağ Azərbaycandır!



# «Ermənilər vahiməyə düşüb qaçırdılar»

Komandirin amiranə səsi eşidildi: "Düşmənin əlində olan Ağdağ postunu almaq üçün irəli!" Tağım komandiri leytenant Ərtoğrul Nadirlinin rəhbərliyi ilə manqalarda birləşən əsgərlər göstərilən istiqamətdə irəliləməyə başladı. Düşmənlə bizim mövqelərimizin arasındakı neytral ərazidə çoxlu mina basdırılmışdı. Minaların əksəriyyəti üstüaçıq vəziyyətdə idi. Əsgərlərimiz kimsə minanı tapdalayarsa, başqaları zərər çəkməsin deyə, ara məsafə saxlayaraq irəliləyirdi. Çox çətinliklə olsa da, ölüm saçan ərazidən salamat keçə bildilər.

Erməni silahlılarının postu döyüşçülərimizin hərəkət etdiyi yüksəkliyin alt tərəfində idi. Üç qrupda birləşən əsgərlərimiz düşmən mövqeyinə hücuma keçdi. Cəsarəti, hünəri ilə seçilən əsgər Fərid Aslanov döyüşçü dostları ilə çiyin-çiyinə düşmən üzərinə şığıyırdı. Əsgərlər bu 22 yaşlı, ucaboylu, pəhləvan cüssəli gənci igidliyinə görə "Aslan" deyə çağırırdılar. Samuxda doğulmuş, Gəncə Dövlət Regional Kollecinin idman fakültəsini bitirmiş, həqiqi hərbi xidmətdə olmuşdu. Ordudan qayıtdıqdan dörd ay sonra uzun müddətli hərbi xidmətə qərar vermişdi. İkinci Qarabağ savaşı - Vətən müharibəmiz başlanan gündən barıt qoxulu cəbhələrdə idi. Ölüm dəfələrlə Fəriddən yan keçmişdi. Yaralanmış, aldığı xəsarətdən üz-gözü, ayaqları, qolları qançır olmuşdu. Buna baxmayaraq yenidən döyüşlərə atılmışdı.

❖❖❖

Fəridgilin taboru Kəlbəcər döyüşlərindən sonra Daşkəsənə gəlib meşədə yerləşmişdi. Komandanlıqdan əsgərlərə belə bir sorğuyla müraciət etmişdilər: "35 yaşınadək olanlar sırasından kim könüllü surətdə xüsusi təyinatlıların tərkibində vuruşmaq istəyir?" Fərid ilk olaraq irəli çıxmış, onun ardınca 32 gənc döyüşçü də hərbi əməliyyatlara qatılmaq istədiyini bildirmişdi. Onların arasında ailəlilər də vardı, nişanlısı yol gözləyənlər də, Fərid kimi subaylar da.

Axşam saatlarında "Ural" maşını könüllüləri aparmaq üçün döyüşçülərimizin yerləşdiyi düşərgəyə yaxınlaşdı. Sanki dözümlülərin yarışı başlanmışdı. Gənc əsgərlərin hər cür çətinliyə, gərginliyə, aclığa, susuzluğa tab gətirməsi yoxlanılır, onlar sınaqdan keçirilirdi.

Fəridin dediklərindən:

- Dözüm imtahanından üzüağ çıxdıq. Şəmkirə, Beyləqana, oradan isə Hadruta gedəcəkdik. Sözün əsl mənasında, çətin bir yolçuluğa çıxmışdıq, bütün tapşırıqları canla-başla yerinə yetirirdik. Hadrutda bir gün qaldıq. Bizi həsrətində olduğumuz Şuşaya yönləndirdilər. Öncə Laçın dəhlizinə doğru irəliləyir, dərin sızma əməliyyatlarında iştirak edir, kəşfiyyat işi aparır, ərazidəki bütün şübhəli nöqtələri hərtərəfli, xırda detallarınadək öyrənirdik. Bu strateji əhəmiyyətli dəhlizə çatana kimi səkkiz gün piyada yol qət etmişdik. Dörd tərəfimiz erməni postları idi, yağılar bu dəhlizədək hər iyirmi metrdənbir səngər qurmuşdular. Yorğun olsaq da, normal qidalanmasaq da, "uf" demədən düşmənin üzərinə yeriyirdik. Bizə atırdılar, yaralanırdıq, yenə gedirdik. Qorxmadan, "Allahu əkbər" deyib onların üzərinə şığıyırdıq. Ermənilər bu sədadan vahiməyə düşüb, çığırışır, hərbi maşınlara doluşub qaçmağa üz qoyurdular. Əsas yolları tutmuşduq ki, yağıların qarşısını kəsək, Şuşaya girmək asanlaşsın.



Şəhərə girəndə artıq dan yeri ağarırdı, hər yer aydın-aşkar görünürdü. Bir qrup Şuşaya qayalardan qalxmışdı, digər qrup isə şəhərə Şuşa həbsxanasının yanından daxil olmuşdu. Halbuki erməni tərəfi bizi Laçın dəhlizi istiqamətindən gözləyirdi. Bir də ayıldılar ki, şəhərin içindəyik. Şuşa səmasında cövlan edən "Bayraqdar"lar, PUA-lar da düşmənə göz açmağa aman vermədi. Onlar vahimə, qorxu, təlaş və çaşqınlıq içindəydi. Ermənilər canlarını götürüb, döyüş texnikasını, silahlarını tullayıb güman gətirdikləri Xankəndi istiqamətinə qaçırdılar.

Başının hayına qalan düşmənin dabanına tüpürüb qaçmasına baxdıqca sövq-təbii Xocalı soyqırımını xatırladım. İllər öncə törətdikləri qanlı Xocalı faciəsində günahsız dinc sakinləri doğma yurdlarından necə qovub çıxarmışdılarsa, indi özləri də çarəsiz duruma düşmüşdülər. Azərbaycan əsgərinin üstünlüyü ilə hərb salnaməmizə yazılan döyüşlərdə, əlbəyaxa vuruşlarda əzilmək, məhv olmaq durumuna... "Dəmir yumruq" öz sözünü demişdi.

❖❖❖

Artıq noyabrın 8-i idi. Şuşada gedən döyüşlər səngimiş, Qarabağın tacı olan bu qala şəhəri şəhidlərimizin canı-qanı, qazilərimizin hünəri ilə düşməndən təmizlənmişdi. Zəfər savaşımız, cəngavər oğullarımızın bizə bəxş etdiyi qalibiyyət ab-havası ürəklərə bir rahatlıq, hüzur gətirmişdi. Fərid də döyüşçü dostlarının arasındaydı. Üzündən-gözündən yorğunluq yağsa da, özünü və cəbhə dostlarını mənən güclü, yenilməz hesab edirdi. Silah yoldaşları kimi, o da evə zəng edib atasına belə demişdi: "Şuşanı aldıq, Şuşa azaddır!" Neçə gündən bəri intizarla gözlənilən bu zəng atası Farizi, anası Şəhlanı kövrəltmiş, onlara dağ boyda sevinc bəxş etmişdi.

Müdrik Sərkərdəmiz, hünərvər əsgər və zabitlərimiz möhtəşəm Zəfər savaşında gerçək tarix yazmışdı. "Aslan" ləqəbli döyüşçümüz 30 illik həsrəti 44 gündə bitirən rəşadətli Azərbaycan Ordusunun əsgəri olduğu üçün qürurluydu. Zəbt edilmiş yurd yerlərimizin, o cümlədən Şuşanın əsarətdən qurtulması naminə döyüşlərə qatılmaq üçün ürəyində hələ uşaqlıq, yeniyetməlik çağlarından yaşatdığı ən böyük istəyi, ülvi arzusu həyata keçmişdi.

Ermənistanın işğalı altında olan əzəli torpaqlarımızın Azərbaycan Silahlı Qüvvələri tərəfindən düşməndən təmizlənməsi uğrunda gedən hərbi əməliyyatlarda fədakarlıq, şəxsi igidlik və şücaət göstərmiş Fərid Fariz oğlu Aslanovun "Şuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif olunması bu mübariz Vətən oğlunun layiqli haqqıdır.

***Zemfira MƏHƏRRƏMLİ,***
***yazıçı-publisist***

● Şəhidlər ölməz, Vətən bölünməz

# Ad günündə şəhadətə qovuşan zabit

Vətənimizin ərazi bütövlüyünün bərpasında, dədə-baba torpaqlarımızın 30 illik erməni işğalından azad edilməsində xidməti olan igidlərimizdən biri də Ruslan Qəhrəmanovdur.



Azərbaycan Milli Ordusunun zabiti Qəhrəmanov Ruslan Mehman oğlu 1988-ci il oktyabrın 6-da Almaniya Respublikasının Maqdeburq şəhərində hərbçi ailəsində dünyaya göz açıb. Həmin ölkədə hərbi xidmətdə olan atası 1990-cı ildə Azərbaycanın başı üzərində qara buludlar dolaşanda doğma yurdu Şəmkirə qayıdır. Az müddətdən sonra Gəncədəki "N" saylı hərbi hissədə xidmətə başlayır.

Xidmətdə olarkən o, Goranboy və Daşkəsən, Gədəbəy, Tovuz və Qazaxın Ermənistanla həmsərhəd ərazilərinə, habelə Qarabağda Bərdə və Tərtər rayonlarında erməni quldur birləşmələrinin qəfil hücumlarının qarşısının alınmasında fəal iştirak edir. Mehman 1992-ci ilin oktyabrında döyüşlərin birində ağır yaralanır. Onda Ruslan dörd yaşında idi. O, böyüdükcə, atasını əlil edənləri xatırlayır, müsəlmanlara qarşı olan vəhşiliklərdən xəbər tutduqca qəlbində erməni quldurlarına qarşı nifrət və qisas hissi baş qaldırırdı. Yaxınlarının dediyinə görə, elə bu səbəbdən Ruslan hərbçi olmaq, atasının peşə və döyüş yolunu davam etdirmək fikrinə düşür. Bu istəklə o, 2004-cü ildə Bakıdakı Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olur. 2007-ci ildə liseyi müvəffəqiyyətlə bitirdikdən sonra təhsilini Heydər Əliyev adına Ali Hərbi Məktəbdə davam etdirir. Daha sonra Təlim-Tədris Mərkəzində kurs keçir. 2012-ci ildə "N" saylı hərbi hissədə xüsusi təyinatlı qüvvələrdə xidmətə başlayır. Bundan dörd il sonra gənc zabit 2016-cı il Aprel döyüşlərinin iştirakçısı olur, hücum əməliyyatlarının uğurlu alınmasında böyük şücaətlər göstərir.

Ruslanın ən böyük arzusu Qarabağın, eləcə də respublikamızın digər sərhədyanı bölgələrində erməni işğalı altında olan torpaqlarımızın azad olunması idi. O, İkinci Qarabağ savaşında döyüş əməliyyatlarının hazırlanmasında fəal iştirak etmişdir. 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində göstərdiyi şücaətlər isə diqqətçəkən olmuşdur. Zabit yoldaşlarının dediyinə görə, tez-tez ön xəttə olur, tapşırıq əməliyyatlarını nəzərdən keçirirdi. Yaralı əsgərlərə xüsusi diqqət göstərirdi. Hətta döyüşlərin beş addımlığında güllənin yağış kimi yağdığı şiddətli nöqtələrə gedib yaralılara yardım edir, şəhid olanları çiyninə alıb arxaya, təhlükəsiz əraziyə çıxarırdı.

Onun qardaşına göndərdiyi "Mən hər şeyə hazıram. Şəhid olsam, ağlamayın, fəxrlə "Vətən sağ olsun!" deyin. Səbirsizliklə gözləyirəm gecənin qaranlığında Kəlbəcərə girməyi". Bu mesaj indi yaxınlarının çoxunun mobil telefonunun yaddaşındadır.

Vətənin azadlığını canından çox sevən Ruslan 32 yaşının tamamına bir gün qalmış - oktyabrın 4-dən 5-nə keçən gecə Cəbrayıl uğrunda gedən döyüşdə qəhrəmanlıqla döyüşüb şəhidlik zirvəsinə yüksəlmişdi. Ad günündə Şəmkirin Xuluf kəndində əbədiyyətə qovuşan Ruslan Qəhrəmanov komandanlıq tərəfindən dəfələrlə fəxri fərman və medallara layiq görülmüşdür.

Kapitan Ruslan Qəhrəmanov şəhadətindən sonra Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

R.Qəhrəmanov ailəli idi, iki qız və ölümündən 10 gün əvvəl dünyaya göz açmış oğul övladı bizlərə yadigardır. Şəhidin doğum və anım günündə, bayramlarda rayon və kənd ictimaiyyətinin nümayəndələri, məktəblilər, döyüşçü yoldaşları, ailə üzvləri və yaxınları vətənpərvər igiddən qürur duyduqlarını bildirərək onun məzarını ehtiramla ziyarət edirlər.

***Əntiqə CAMALQIZI,***
***"Şəmkir" qəzetinin redaktor müavini***

● Ölümsüzlüyə qovuşanlar

# Yaralı olsa da, savaş meydanına dönən igid

## Məhəmmədəli İbrahimli elmdə də şəhidliyi kimi zirvələrə yüksəlirdi

44 günlük Vətən müharibəsində ordumuz ərazilərimizi işğaldan azad etməklə tarixə qəhrəmanlıq salnaməsi yazdı. Birinci Qarabağ savaşındakı kimi, gənclərimiz Vətən müharibəsində də örnək oldular. Onlar göstərdikləri misilsiz şücaətləri, bitib-tükənməyən Vətən sevgiləri ilə dillərdə dastana çevrildilər.



Həmin gənclərdən biri də Məhəmmədəli Mütəllim oğlu İbrahimlidir. O, 1996-cı ildə Beyləqan rayonunda anadan olmuşdu. 44 günlük Vətən müharibəsinədək işğal altında qalan Füzuli rayonunun Cuvarlı kəndindən idi. 2003-2014-cü illərdə 215 saylı orta məktəbdə oxumuşdu. Dörd il Azərbaycan Dövlət Neft və Sənaye Universitetində bakalavr, sonra isə Azərbaycan Texniki Universitetində magistr təhsilini başa vurmuşdu. Məhəmmədəli vətənpərvərliyi ilə seçilən, hər kəsin dərin hörmət və sevgisini qazanan şəxsiyyət kimi tanınmışdı.

Düşmən səngərinə kəşfiyyatçı kimi girən Məhəmmədəlinin 2020-ci ilin yayında doktorantura səviyyəsində təhsil almaq fikrindən imtina edərək, həqiqi hərbi xidmətə yollanması da vətənpərvərliyinin bariz nümunəsi idi. O, Vətən müharibəsində Azərbaycan Ordusunun kəşfiyyatçısı kimi işğal altında olan ərazilərimiz uğrunda gedən döyüşlərə qatıldı. Oktyabrın 3-dən 4-nə keçən gecə ağır yaralansa da, bir həftə hospitalda müalicə aldıqdan sonra təkid və tövsiyələrə baxmayaraq, yenidən cəbhəyə qayıtdı. 13 oktyabr 2020-ci ildə Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid oldu.

Qəhrəmancasına döyüşüb, düşmənə layiqli cavab verən igidlərin şəhidliyi müqəddəsdir. Lakin elə məsələlər olur ki, o, ürək ağrısı ilə xatırlanır. Şəhid Məhəmmədəlinin nəşinin döyüş bölgəsindən düz 63 gündən sonra götürülməsi yalnız doğmalarına deyil, silahdaşlarına da ağır mənəvi-psixoloji zərbə oldu. 2020-ci il dekabrın 15-də Bakının Sabunçu rayonundakı Şəhidlər xiyabanında dəfn edilən, xalq arasında qəhrəmanlığı dillərdə gəzən Məhəmmədəlini hər kəs, xüsusən də döyüş dostları əsl qəhrəman kimi dəyərləndirir, sayğı, ehtiramla xatırlayırlar. O, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda gedən döyüş əməliyyatlarında fəal iştirak etdiyinə və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olundu.

Yalnız onu deyək ki, yaralı-yaralı döyüşlərə dönən igid Məhəmmədəli İbrahimli elmdə də şəhidliyi kimi zirvələr fəth edəcəkdi, təəssüf ki, amansız düşmən buna aman vermədi, yolları da ömrü kimi yarımçıq qaldı...

Əlbəttə, Məhəmmədəli kimi igidlərin Vətən qarşısındakı xidmətlərinin mükafatı xalqın sevgisi, bir də qazandıqları şəhidlik zirvəsidir!

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

● Dövlət qayğıkeşliyi

# Gəncədə şəhid ailələri, qazilər və müharibə iştirakçıları ilə görüş keçirilib

Gəncənin dövlət qurumları Vətən müharibəsi iştirakçıları, qazilər və şəhid ailələri ilə yaxından maraqlanır, onları narahat edən məsələlərin aradan qaldırılması istiqamətində operativ tədbirlər həyata keçirirlər.




Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov növbəti dəfə şəhid ailələri və qazilərlə görüşüb. Görüş Nizami və Kəpəz rayon icra hakimiyyətləri başçılarının və bələdiyyə sədrlərinin, idarə, müəssisə və təşkilat rəhbərlərinin iştirakı ilə keçirilib.

Görüşdə iştirak edən şəhid ailələri və qazilərin, o cümlədən müharibə iştirakçılarının müraciətləri tək-tək dinlənilib. Müraciətlərdə maddi yardımın, müalicə üçün köməyin göstərilməsi, fərdi yaşayış evinin inşası üçün torpaq sahəsinin ayrılması, işlə təminat və s. məsələlər qaldırılıb.

Müraciətlərin və problemlərin bir çoxu yerindəcə öz həllini tapıb, digərlərinin araşdırılaraq, qanun çərçivəsində həlli edilməsi üçün tapşırıqlar verilib.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***



2021-ci il
“Nizami Gəncəvi ili”dir

880

*Ucalmaq istəsən bir kamala çat,*
*Kamala ehtiram göstərir həyat!*



● Klassik irsimiz

# Əsrlərdən gələn səs

**Xalqımızın tarix boyu yetirdiyi ən böyük dühalardan olan görkəmli şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880-ci ildönümünü simvollaşdıran “Nizami ili”ndə onun əsərlərindəki qadın obrazları barədə də söhbət açmaq yerinə düşər. Qadına münasibət, bu adın ucalığı, şərəfi şairin yaradıcılığında aparıcı istiqamət təşkil edir. Bu mövzuda düşüncələrini qüdrətli söz ustadı yaratdığı ayrı-ayrı parlaq qadın obrazları işığında canlandırır.**



İsgəndərin Nüşabə ilə onun sarayında görüşməsi, XVI əsr, Uolters Sənət Muzeyi

## Qadına sevgi və ehtiram

Nizaminin Şərq ədəbiyyatının şah əsərlərindən olan “Xəmsə”si qadın surətləri ilə zəngindir. “Sirlər xəzinəsi”, “Xosrov və Şirin”, “Leyli və Məcnun”, “Yeddi gözəl”, “İsgəndərnamə” əsərlərinin hər birində mükəmməl mənəvi keyfiyyətlərə malik qadınlarla rastlaşırıq. Maraqlısı budur ki, “Xəmsə”dəki bütün poemaların əsas qəhrəmanları elə məhz bu zərif zümrənin insanlarıdır. Şairin qadına, anaya ali münasibəti, ilk növbədə, elə bundan bəlli olur. Digər maraqlı məqam isə Nizaminin qadın obrazlarını bu qədər dahiyanəliklə yarada bilməsi, onların mənəvi dünyasına dərindən bələdliyi, həssaslıqla anlamaq bacarığıdır. Həmin obrazlarla yaxından tanış olduqca bu zümrənin çəkdiyi iztirabları, acılı-şirinli duyğuları da hiss etmiş olursan. Qadına verilən yüksək dəyər, ilk növbədə, Nizaminin öz anasına olan sevgisindən, ehtiramından irəli gəlir. Şeirlərinin birində dahi şair anası Rəisənin vəfatını sarsıntı ilə təsvir etməklə onu dünyaya gətirmiş qadına böyük övlad sevgisini ifadə edir. Digər tərəfdən şairin zərif zümrəyə münasibətinin müəyyənləşməsində, qadın ideallarının formalaşmasında öz xanımı Afaqa olan dərin məhəbbəti, hörmət və ehtiramı da böyük rol oynamışdır.

Afaqı Dərbənd hökmdarı şairə kəniz kimi hədiyyə etmişdi. Afaqın yüksək kamallı bir qadın olduğunu görən Nizami onu özünə həyat yoldaşı seçmişdi. Onunla yaxşı günlər keçirdiyini əsərlərində daim xatırlayır. Afaqın ölümü Nizami Gəncəvini çox sarsıdır. Bunu hər dəfə iztirab dolu misralarında da duyuruq.

İlk poeması “Sirlər xəzinəsi”ndə qadın surəti və onun cəmiyyətin aparıcı qüvvəsi kimi öz haqq və hüququnu tələb etməsi “Sultan Səncər və qarı” mənzuməsində çox inandırıcı şəkildə verilmişdir. Nizaminin ideal cəmiyyət sorağında olduğu, insanları sosial təbəqəsindən asılı olmayaraq mənəvi təmizliyə çağırması poema boyu təbliğ olunur. Və bunu çəkinmədən ümidi hər şeydən kəsilmiş bir qarının dilindən ədalətsiz, zülmkar hökmdarın üzünə söyləyir. Əsərdə dul bir qadının hünəri mənəviyyatını iblisə satmış hökmdarın nadanlığına qarşı qoyulur. Bununla da dahi şair zəmanəsinin ən cəsarətli söz ustadı olduğunu sübut edir.

## Bənzərsiz obrazlar

Nizami Gəncəvinin əsərlərindəki qadınların hərəsinin öz missiyası var. Dahi mütəfəkkir bu surətlər vasitəsilə ayrı-ayrı dəyərləri simvollaşdırır, düşüncələrini bu simvollar vasitəsilə oxucularına yetirir. Belə ki, bir çox tədqiqatlarda da qeyd edildiyi kimi, Nizaminin əsərlərindəki Nüşabə obrazı şahlıq, sultanlıq, müdriklik simvolu, Şirin sədaqət, doğruluq, namus, Fitnə əzmkarlıq, cəsarət, dözüm, Leyli dövrünün bütün ağrı-acılarına, mühafizəkar qayda-qanunlarına qeyd-şərtsiz əməl etməyə borclu, mühitin diktəsi ilə hərəkət etməyə məcbur olan saf bir qız, Məhin Banu həm hökmdar qadın, həm də doğru yol göstərən müdrik, mükəmməl bir xanım rəmzi olaraq təqdim edilir. Bu obrazlarla tanış olduqca gözlərinin önündə Nizami dövründə yaşamış xanımların kamillik abidəsi canlanır və bu qadınların gözəlliyinə, ağlına-kamalına, ismətinə, zərifliyinə, kişilərlə bərabər səviyyədə dayanmalarına, bir o qədər də mətinliyinə, cəsarətinə heyran olmaya bilmirsən.

Nizami yaradıcılığındakı qadın surətləri nəinki klassik, eləcə də ümumən Azərbaycan ədəbiyyatının bənzərsiz qadın obrazları kimi ümumbəşəri bir fonda öz ifadəsini tapır. Əsərlərinin birində şair qadını vəfasız adlandıran, onları dünyaya bəla sayan ərəbi bədxah bir insan kimi səciyyələndirir və bununla da qadına münasibətini göstərmiş olur.

Nizaminin yaratdığı mükəmməl qadın obrazlarından biri Nüşabədir. Bu obrazla “İsgəndərnamə” əsərində rastlaşırıq. Nüşabə Bərdə hökmdarıdır. Bu ağıllı qadının ədaləti, uzaqgörənliyi sayəsində onun yurdu çox gözəl, abad, insanların xoşbəxt yaşadığı məkana çevrilmişdir. Əsərdə şair yalnız Nüşabə surətinin təsviri ilə məhdudlaşmır. Bu müdrik qadının ətrafında minlərlə qəhrəman qız-gəlini bir araya gətirir. Poemada şairin öz qadın qəhrəmanına - Nüşabəyə heyranlığını da duymamaq olmur. Onun ağlına, dərrakəsinə məftun olan Nizami qadın müdrikliyinin və bir o qədər də igidliyinin təsviri üçün Makedoniyalı İsgəndəri Azərbaycana gətirir. Səhraya qoşun çəkən İsgəndər su və əkininə heyran qaldığı o yerin başçısı ilə maraqlanır. Həmin diyarın Nüşabə adlı bir qadın tərəfindən idarə edildiyini söyləyirlər. Nizami hər iki hökmdar arasında baş verən hadisəni dramatik planda təsvir edir. Makedoniyalı İsgəndər qüdrətli hakim olsa da, adi elçi sifəti ilə Bərdəyə Nüşabənin yanına getməli olur. Özünün böyük sərkərdəliyi ilə öyünən İskəndərin Nüşabənin sarayına gələrkən elçilik qaydalarına riayət etməməsi, cəsarətlə içəri girməsi, qılıncını çıxarmaması hökmdar xanımda şübhə doğurur. Nüşabə bundan qəzəblənir və axırda şübhələndiyi adamı tanıyır. Nüşabə yenilməz bir qəhrəman kimi İsgəndərin sözlərindən qorxmur. Böyük sərkərdə özünün tanınmması üçün nə qədər israr etsə də, Nüşabənin gətirdiyi dəlillər qarşısında aciz qalır. Dünyanı fəth etmək qüdrətində olan İsgəndər Nüşabənin kamalı qarşında diz çökür. Fatehin düşüncələrində tamam başqa bir aləmin qapılarını açır. Nizami burada qadının ağlının, mənəvi qüvvəsinin intəhasızlığını göstərir. Nüşabənin hökmdarlıq etdiyi diyarın bəd niyyətdən, xudbinlikdən, tamahkarlıqdan, naqis keyfiyyətlərdən xali olduğunu meydana qoyur.

## Şərq ədəbiyyatında bir ilk

Nizami Gəncəvi Şərq ədəbiyyatında ilk dəfə qadını ən yüksək zirvəyə ucaldıb layiq olduğu qiyməti verən şairdir. Onun əsərlərindəki surətlərin araşdırılması Azərbaycan milli düşüncəsində tarixən xanımlarımıza münasibətin müəyyən edilməsi baxımından çox önəmlidir. Çünki “Xəmsə”dəki bu obrazlar şairin xəyal dünyasından gəlmir, yaşadığı dövrün reallıqlarından, o dövrə qədər formlaşaraq möhkəmlənmiş ənənələrdən qaynaqlanır. Onlar heyranedici gözəllikləri, mənəvi dünyalarının zənginliyi, dərin zəkaları ilə böyük rəğbət doğururlar. Əməllərindəki saflıq, dürüstlük, nəciblik bu zərif insanların ali keyfiyyətlərindəndir. Həmin obrazları Nizaminin əhatə olunduğu mühitlə birgə təsəvvüründə canlandıra bilirsən və Azərbaycan xalqının hələ əsrlər əvvəl dünyanın bir çox toplumlarından nə qədər irəlidə olduğunu görürsən.

Bu qəhrəmanlar sırasında dünya ədəbiyyatı xəzinəsinin gözəl incisi olan Şirin öndə durur. Şair “Xosrov və Şirin” poemasında məhəbbətin böyüklüyünü, insan ağlını, düşüncəsini tərənnüm edərək əsrlərlə unudulmayan bədii surətlər, ədəbi qəhrəmanlar yaratmışdır. Şirin Şərq ədəbiyyatında Nizaminin ən mükəmməl qadın obrazlarından biridir. Bu mükəmməllik obrazın boyuna, biçiminə, ağlına, kamalına, hətta saçının gözəlliyinə qədər bütün təfərrüatları əhatə edir. Əslində gözəllik Nizaminin bütün qəhrəmanları üçün bir meyardır. Təbii ki, şairin “Xosrov və Şirin” poemasında əsas diqqət mərkəzində saxladığı və baş verən bütün hadisələri bu adın ətrafında mərkəzləşdirdiyi Şirin də istisna deyil. Şirin hökmdar nəslindəndir. Əsl xarakter sahibi olan bir xanımdır. Hadisələrə adekvat reaksiyası ilə böyük rəğbət doğurur. Şair Şirinin psixoloji əhvalını, fikirlərini, xasiyyətini, duyğularını qurduğu hadisələr silsiləsinin əhatəsində çox böyük ustalıqla təsvir edir. Poemanın məzmun janrı şairin özü tərəfindən “həvəsnamə” kimi müəyyən edilsə də, Nizami əsərində insanı mənən zənginləşdirən və kamilləşdirən, onu ilahi mərtəbəyə qaldıran, xarakterini mənfidən müsbətə doğru dəyişdirən ülvi məhəbbətə himn yaratmışdır.

Şirin həm də həqiqi qadın xarakterinin ifadəçisidir. Elmi tədqiqatlarda da qeyd edildiyi kimi, Nizami bu xarakteri, onun inadcıllığını böyük zövqlə təsvir etməkdən yorulmur. Şirin Məhin Banunun öyüdlərindən sonra hiss burulğanından ayılır və ona söz verir ki, Xosrovun evinə kəbinlə daxil olacaq və heç vaxt onun kənizinə çevrilməyəcək. Bu məqamda Nizami Gəncəvinin qadına münasibətdə demokratizmini görürük. Eyni zamanda Xosrovun istəmədiyi qadınlarla izdivaca girməsinin acı sonluğunun təsvirini verir. Əsər boyu Xosrovla Şirinin xarakteri bir-birini tamamlayır. Şirinin öz sevgilisinin məzarı üstündə intihar etdiyini təsvir edərkən şair onun bu fədakarlığını alqışlayir, qadını ülvi bir varlıq kimi göstərir.

## Qadın azadlığının tərənnümçüsü

Təbii ki, Nizaminin yaratdığı bütün qadın obrazları öz dövrünün hadisələridir və o dövrdə zərif cinsə münasibət məsələsi heç də bütün məqamlarda ürəkaçan deyildi. Ata evində, ər evində qadını mənəvi buxovların əsirliyində saxlayan düşüncə sahibləri çox idi. Beləleri qadına hüquqsuz, dilsiz-ağızsız əşya kimi yanaşırdılar. Bəzən onları bir saraydan başqa saraya, yaxud sarayın hörmətini qazanmış hansısa şəxslərə kəniz qismində hədiyyə kimi göndərirdilər. Bu acınacaqlı durum zəmanəsinin böyük zəka sahibi kimi şeyx Nizamini hər zaman düşündürürdü. Belə bir mühitdən çıxış yolları aramağa çalışırdı. Ona görə də şair yaradıcılığının mühüm bir qismini məhz bu mövzuya həsr etmişdir. Böyük mütəfəkkirin qeyd edilən məsələdən dolayı narahatlıqla poetik axtarışlarının ən mükəmməl nümunələrindən biri Leyli obrazıdır. Leyli arxaik düşüncənin, köhnə ehkamların əsirinə çevrilmiş qadınların ümumiləşmiş obrazıdır. O, Məcnuna dəlicəsinə aşiqdir, amma öz sevgisini dilə gətirmək iqtidarında deyil. Yaşadığı cəmiyyət, əhatə olunduğu mühit bunu qadına qadağan edirdi.

Leyli surəti Şərq xanımlarının fədakarlığının, analıq qayğısının, məişətdə oynadığı mühüm rolun canlı abidəsidir. Şair qadının azadlığa layiqliyini, ona qarşı zorakılıq hallarına son qoyulması ideyasını tərənnüm edirdi. Bu baxımdan da deyə bilərik ki, Nizami Gəncəvi cəmiyyətdə qadının necə rol oynayacağını min il bundan əvvəl görüb onu qələmə almışdır.

Dahi şairin yaratdığı parlaq qadın obrazlarından biri də “Xosrov və Şirin” poemasındakı Məhin Banudur. Nizami onun timsalında ədalətdə, səxavətdə, cürət və cəsarətdə əsla kişilərdən geri qalmayan hökmdar qadının portretini canlandırır. Məhin Banunun səltənətində əmin-amanlıqdır. Xalqın güzəranı yaxşıdır, ölkənin xəzinəsi həmişə dolu, torpağı bərəkətlidir. Məhin Banu adil bir hökmdar olmaqla yanaşı, eyni zamanda qayğıkeş, həssas ana, müdrik, ağıllı bir qadındır. Bunu onun qardaşı qızı Şirinə öyüd-nəsihətlərində görürük. Təmiz ad və təmiz əxlaqın şahlığa bərabər tutulduğunu Şirinə başa salır, onu dünyanın hiylələrinə uymamağa çağırır.

## Qadın iradəsi

Şair “Yeddi gözəl” poemasında yaratdığı Fitnə obrazını da kifayət qədər parlaq boyalarla işləmişdir. Bu surət iş və çalışqanlığın nə olduğunu Bəhram Gura anladır, mətanəti ilə şahı heyrətləndirir. Vaxtilə onun ölümünə fərman vermiş şah aylar sonra Fitnənin igidliyinə valeh olur.

Şair “Yeddi gözəl” poemasında qadın problemini dünya müstəvisinə çıxarır və bu problemin daha geniş çevrədə həllinə çalışır. Əsərdəki çin, rus, fars, türk, hind, ərəb və digər xalqlara mənsub qadın nümayəndələrin hər biri öz ağlı-kamalı, dərrakəsi ilə diqqəti çəkir, öz milli adət və ənənələrinə sevgiləri, analıq qayğısı ilə böyük rəğbət doğururlar. Nizami qadınların ailədəki rolunu yüksək qiymətləndirir. Qadını evin aparıcı qüvvəsi, övladların ümdə tərbiyəçisi hesab edir.

Nizami Gəncəvi öz dövründə qadınlar haqqında mövcud olan bir çox mənfi stereotipləri də dağıdır. Şair yanlışlıqların təsirindən irəli gələrək qadınlara şamil edilən mənfi xüsusiyyətlərin əslində onların fitrətinə uyğun olmadığına səmimi-qəlbdən inanır. Bu qənaətini Xosrovun ölümünə dözməyərək onun məzarı başında canına qıyan Şirin haqqında yazdığı bu sözlərlə tamamlayır: “Afərin Şirinə və onun şirin ölümünə! Afərin can verib can almasına! Eşq üçün belə ölmək lazımdır. Canana belə can vermək gərəkdir. Hər qadın olan namərd deyildir...”

Nizaminin dahiliyinə baxın ki, o, bu günün əsas müzakirə mövzularından olan gender bərabərliyi məsələlərinin mahiyyətini tam dəqiqliyi ilə anlayır və anladır. Yaratdığı qadın surətlərini ailənin müqəddəsliyi, xalqımızın milli-mənəvi dəyərləri, mental xüsusiyyətləri ilə də uğurlu şəkildə uzlaşdırır. Əsrlərin o üzündən gələn bu təlqinlər müasir dünyamızda da mühüm aktuallıq kəsb edir, insan mənəviyyatına işıq salır, həyata aydın münasibət formalaşdırır.

***İradə ƏLİYEVA,***
***“Azərbaycan”***

● Fikrin, sözün aynasında

# Böyük şairin müdrik deyimləri

**XII əsr Azərbaycan poeziyasının ən müqtədir sənətkarı olan Nizami Gəncəvinin mənəvi mədəniyyətimizin yüksəlişində misilsiz töhfələri olmuşdur. Söz kəsəri ilə bəşəriyyəti haqqa, ədalətə, düzgünlüyə, humanizmə, xəlqiliyə, demokratizmə səsləyən ulu şairin poetik dünyasında əbədiyaşarlıq nümunələri qazanmış hikmət və nəsihətləri, aforistik deyimləri də külli halında illər keçdikcə daha da aktuallaşır, milli və bəşəri dəyərlərə aydın işıq salır.**



Böyük şair dünya miqyasında “Xəmsə” müəllifi kimi şöhrət tapsa da, onun şeir sultanı olmaq məramı lirikasının bütün janrlarında, o cümlədən qəzəllərində, qəsidələrində, rübailərində, qitələrində də güclü poetik təfəkkür məhsulları kimi mənalandırılmışdır.

Fikrin, sözün aynasında cilalanan dahi şairin bütün əsərlərində sadə, aydın və lakonik söz yaradıcılığı geniş məndəricədə təsbit olunmuşdur.

Bütövlükdə Nizami Gəncəvi həyat və ideallarında həmişə “yaxşı insan” konsepsiyasını arzu və istəklərinin məhvərinə gətirmiş, sağlam tərbiyə yolunda fədakarlıq fütühatı göstərmişdir.

Bu gün gənc nəslin hərtərəfli maariflənməsi yolunda dahi söz ustadının digər janrlardakı yaradıcılıq külliyyatında yer almış aforistik deyimləri də müasir təlim-tərbiyə prosesinin zənginləşməsi üçün əvəzsiz, qiymətli səltənət olaraq klassik irsimizin söz yadigarları kimi mənəvi-poetik fikrin sönməz təşnəsi kimi dəyərləndirilməlidir.

Biz isə Nizami Gəncəvi poeziyasının estetik meyarı olan insanın zövqünü, məsləyini, əqidəliliyini, cəfakeşliyini formalaşdıran aforistik deyimlərindəki fəzil keyfiyyətlərə nəzər salıb bu qaynaqlar üzərində fikir və mülahizələrimizi oxucularla bölüşmək istədik.

İlkin olaraq onu qeyd edək ki, şairin xalq pedaqogikasına, dərin elmi fikrə, fantastik mütaliə qabiliyyətinə malik olduğunu sübut edən belə aqilanə deyimləri onun nə qədər böyük ağıl-kamal sahibi olmasına dəlalət edir. O, insanlığa xidmət edən nəsihət xarakterli deyimlərində, müdrik kəlamlarında bu fikri “İsgəndərnamə” əsərində belə poetikləşdirmişdir:

*Həmişə dünyada yaxşılıq axtar,*
*Yaxşı ad almaqda əbədiyyət var!*
*Yaxşı adlananla yaxşı ol müdam,*
*Yoxsa sən özün də olarsan bədnam.*

Şair düşüncəsinin poetik məhsula olan aforistik deyimləri onun bütün qələm məhsullarının şah damarıdır. O, nəsihətamiz fikir və düşüncələrini bədii-estetik, əxlaqi-mənəvi dəyərlər fokusunda, dərin mənəviyyat zənginliyi ilə öz yaradıcılığının leytmotivinə çevirmişdir. İnsan övladına məna dolu həyat motivasiyası bəxş edən şairin aforistik deyimlərində şəxsiyyət konsepsiyası bu cəhətdən bütün zaman kəsikləri üçün aktual problematik məsələdir. Ağıl tərbiyəsi istiqamətində müasir gənc nəslin formalaşması prosesində belə müdrik kəlamların təsir gücündən hər bir müəllim yeri gəldikcə, stimullaşdırıcı məqam kimi istifadə edə bilər.

XX əsrin son qərinəsinin böyük tərcüman şairi Xəlil Rza Ulutürk mücadilə və istiqlal yolunda söz məlhəminin vasitəsilə döyüşkənliyin nə qədər cahanşümal bir qüvvət olduğunu Nizami Gəncəvi yaradıcılığında qəvvas dəqiqiliyi ilə bədii-poetik araşdırmalarının məhvərinə gətirərək yazır: “... Sirlər xəzinəsi”ni tərcümə edib başa çatdırdıqdan sonra mənə bəlli oldu ki, Nizami üçün başlıca məsələ insan uğrunda mübarizədir. İnsan uğrunda mübarizə onun, demək olar ki, bütün əsərlərindən yağışdan sonrakı səmada görünən göy qurşağı kimi keçib gedir. Nizaminin fikrincə, insan dünyanın əşrəfidir. Başqa reallıqlardan fərqli olaraq, təbiət ona zəka bəxş etmişdir. Buna görə o, bəxtiyardır və bütün xilqətlərin həyatına cavabdehdir”.

Nizami Gəncəvinin yoldaşlıq, kiminlə oturub-durmaq haqqında olan nəsihətləri bu gün də öz dəyərliliyini saxlayaraq hər bir valideyn və müəllim üçün böyük məktəbdir. Uşaq şəxsiyyətini formalaşdırmaq, onu kamillik zirvəsinə çatdırmaq, əxlaqa, mənəviyyata yabançı olan hallara qarşı barışmazlıq ruhunda təlimləndirməyin əsl leytmotividir. Şair həmin fikir və hissləri aforistik nümunələr zəminində dərk etməyin düsturnamələrini nəzərə çəkərək gənc nəslin bu yolda mətinləşməsinə rəvac verən kamillik dərəcələrini müəyyənləşdirir. Sadə el dilində səslənən ibarələrdən nəcibləşdirici keyfiyyət kimi istifadə edir:

El yolunda günə dön, aya dön, ulduza dön,
Yaxşılığı əzəldən adət etsən özünə,
Yaxşılığın hər yanda qapı açar üzünə.
Hər əməlin üstündən sanma keçəndi dövran,
Hər yaxşını, yamanı yaxşı seçəndir dövran.
Ülviyyətə qulluq et, günah dalınca varma,
Günahkar insan kimi boyun büküb yalvarma.

Nizami Gəncəvi elm və bilik əldə etmək, təcrübə toplamaq, qarşıya çıxan çətinlik və maneələri aradan qaldırmaq prosesində gənc nəslə örnək olan aforistik deyimlərində bir daha onların püxtələşməsində tərbiyə və təlimin həlledici əhəmiyyətə malik çalarlarını bədii sözün qüdrəti ilə elmi fakt və nümunələrlə əsaslandıran beytlər söyləyir. İnsan konsepsiyasına ağıl və zəkanın sirayətediciliyi prizmasından nəzər-diqqət yetirir.

Böyük şairin poeziyasının şah damarı kimi təqdir olunan aforistik deyimləri daha çox “Leyli və Məcnun” əsərində öz bədii-estetik həllini tapmışdır. “Atasının Məcnuna nəsihəti” adlı müraciət təriqli nəsihətnamələrin el-oba arasında bu gün də məşhur poetikada qəbul olunduğunu qeyd etmək yerinə düşər. Müdrik deyimlər işığında qələmə alınmış bu ibrətli kəlamlar bütün zamanlarda ailə tərbiyəsinin aparıcı istiqaməti olub, hər bir xalqın milli və bəşəri dəyərlər sistemində valideyn-övlad münasibətləri üçün mənəvi kompasdır.

Çox gözəl olsa da eybi gizlətmək,
Dost-dostun eybini örtməsin gərək.
Qaranlıq gecədən ağ səhər doğar,
Hər umudsuz işdə bir çox umud var.
Oğul, səadətin qapısını aç,
Ayağı sürüşkən taleyindən qal,
Çalış, əllərindən çıxmasın dövlət,
Dövlətlə yaranır bütün səadət.

Nizami Gəncəvinin haqq və ədalət yolunda tökülən qan-qadanın bühudə yerə axmadığını, hərb və sülh dünyasının toqquşan məqamlarının ağıl və idrak müstəvisində həll olunmasına aid aforistik deyimlərində də insanlığın gələcək uğurlu arzuları təsbit olunmuşdur.

Onun kəlamlarında “Vətənə sevgi, düşmənə nifrət” tərbiyəsi indi də aktual problem olaraq gənc nəslin ideya-mənəvi inkişafında qüdrətli, təsiredici gücə malik vətənpərvərlik çağırışları kimi öz qədir-qiymətini saxlayır, insanları sülhə, əmin-amanlığa səfərbər edir.

Nizami Gəncəvinin ömür yolunun, yaradıcı dünyasının işığı bütün zümrədən olan insanlar üçün ideya, məslək fütuhatı aşılayan qiymətli fikirlər səltənətidir. Şairin ölməz ideallarında sülh məramı, şəxsiyyət azadlığı, insan humanizmi, bəşər sevgisi ana xətt olaraq bütün Yer üzünün insanlarını fitnə-fəsaddan uzaq olmağa, demokratik düşüncəyə sahib çıxmağa, insan zəkasını elmə, tərəqqiyə həsr etməyə dair çoxsaylı fikir və mülahizələrindən faydalanmaq nəcib və şərəfli bir işdir.

***Vidadi BƏŞİROV,***
***Azərbaycan Dillər Universitetinin dosenti, pedaqogika üzrə fəlsəfə doktoru***

● “Xəmsə”nin sonuncu poeması

# Bədii dəyərləri ilə məşhur olan əsər

**“İsgəndərnamə” Nizami Gəncəvinin “Xəmsə” toplusuna daxil olan beşinci poemasıdır. Əsər fars dilində yazılmışdır. Şairin lirik şeirlərində və digər poemalarında qaldırdığı ictimai problemlər burada tam bədii əksini tapmışdır.**

“İsgəndərnamə” iki hissədən ibarətdir: birinci hissə “Şərəfnamə", ikinci hissə “İqbalnamə” adlanır. “Şərəfnamə” Azərbaycan Atabəylərindən Nüsrətəddin Əbubəkr ibn Məhəmmədə, “İqbalnamə” isə Mosul hakimi Məlik İzzəddinə ithaf edilmişdir. “İsgəndərnamə” tarixi-romantik poema olub, həcmcə müəllifin ən böyük əsəridir, 10460 beyti əhatə edir. Əsərin 6835 beyti “Şərəfnamə”də, 3625 beyti isə “İqbalnamə”də toplanmışdır. Poema əruz vəzninin mütəqarebe məqsur (məhzuf) bəhrində yazılmışdır.

“İsgəndərnamə” özünün yüksək ideya və bədii dəyərləri ilə Yaxın Şərq xalqları ədəbiyyatına güclü təsir göstərmişdir. Qəhrəmanın mənşəyinə dair müxtəlif variantlı rəvayətlərin təsvirindən sonra İsgəndərin doğulması, tərbiyə illəri, hakimiyyətə keçərək ədalətli bir hakim olması nəql edilir. Əsər boyu qəhrəmanın sərkərdə, alim və peyğəmbərliyini əks etdirən müxtəlif hadisələr verilir. İsgəndərin sərkərdəlik fəaliyyəti ilə bağlı olan hadisələr əsərin birinci hissəsində tamamlanır, sonra isə təsirli müharibə səhnələri, hökmdarlar arasında gedən müxtəlif münaqişələr təsvir edilir. Hadisələr ibrətamiz hekayələrlə təsvir edilir və qəhrəman bu hekayələrdən ibrət alır.

“İsgəndərnamə” haqqında ilk məlumat Məhəmməd Ovfinin (XIII əsr) “Lübabül-əlbab” əsərində verilir. Bu təzkirə Nizaminin ölümündən sonra yazılmışdır.

Əbdürrəhman Cami “İsgəndərnamə”nin Nizaminin 60 yaşından sonra yazdığı son əsəri olduğunu qeyd edir. Məşhur şərqşünas Hammer “İsgəndərnamə”dən 100-ə qədər beyti alman dilinə tərcümə etmişdir.



İsgəndərin Çin xaqanı ilə döyüşməsi, 1517-1518, Uolters Sənət Muzeyi

Nizami Gəncəvi hər dastanın məzmununu nəql etməzdən əvvəl adətən giriş xarakterli nəsihətnamə verir.

Əsərin “Şərəfnamə” hissəsini Abdulla Şaiq, “İqbalnamə”ni Mikayıl Rzaquluzadə Azərbaycan dilinə tərcümə etmişdilər.

***“Azərbaycan”***

Dünya olduğu kimi

# “Qızıl alma”

**Bu gün insanların çox sevdiyi, vitaminlərlə zəngin sitrus meyvələrinin “əcdadlarının” tarixi milyon illər əvvələ gedib çıxır. Yer üzündə ən çox yayılmış kənd təsərrüfatı bitkilərindən olan sitrus meyvələrinin təkamül mənşəyi və növləri arasında əlaqə var.**



Sitrus növünün genomlarının tədqiqi nəticəsində məlum olub ki, bu növün ortaq “əcdadı” təxminən 8 milyon il əvvəl Çinin Yunnan bölgəsində, Himalay dağlarının ətəyində yaşayıb. Daha sonra Avstraliyaya və dünyanın müxtəlif ölkələrinə, o cümlədən Asiyanın qalan hissəsinə yayılıb. Beləliklə, bu bitkilərin Avstraliyada təkamül keçməsi və daha sonra Asiyaya gəlməsi ilə bağlı fərziyyə təkzib olunub.

## *Portağal naringidən əmələ gəlib*

Alimlərin apardığı araşdırmalarda naringi (mandarin) və şirin portağalların bir-biri ilə xüsusilə çox yaxından əlaqəli olduğu və onların birlikdə inkişaf etdiyi üzə çıxıb. Pomelo bitkisinin də bu təkamül prosesində tez-tez iştirak etdiyi aşkar edilib. Pomelo genləri naringinin dadına böyük töhfə verib.

Araşdırmaların nəticələrinə görə, bütün növ sitrus meyvələrinin kökündə 10 bitki var. Bunlardan üçü sitron, naringi və pomelodur. Limon, portağal və qreyfrut kimi daha məşhur olan bitkilər bu üç növün qarışması nəticəsində təkamül prosesindən keçib. Başqa sözlə desək, portağal naringidən əmələ gələn bir meyvə kimi ortaya çıxır.

## *Avropaya portağal və naringini gətirənlər portuqallar olub*

Portağalların gen mərkəzi Himalay dağlarının cənub-şərq ətəkləri, Hindistanın Assam vilayətinin şərq hissəsi, Myanmanın şimalı və Çinin Yunnan əyalətini əhatə edən bölgələrdir. Portağalın bu ərazilərdən dünyaya yayılması ilk yazılı mənbələrdə də öz əksini tapıb. Bu meyvənin Avropaya gətirilmə tarixi ilə bağlı fərqli məlumatlar var. Bəziləri portağalın Roma imperiyası dövründə tacirlər tərəfindən Avropaya gətirildiyini deyirlər. Həmin zamanlarda portağallar Hindistandan Romaya daşınıb.

Başqa məlumatlarda isə portağalın Avropada XV əsrdə yayıldığı açıqlanır. Mənbələr yazır ki, Avropaya portağal və naringini ilk tanıdanlar portuqal dənizçiləri olub. Təbii ki, bunun portuqaliyalıların Asiyanın bir çox yerində koloniyalar yaratması ilə birbaşa əlaqəsi var. Onların sayəsində Siciliya krallığı portağal ilə IX əsrdə tanış olub. Bu portağalın dadı yəqin ki, indi yediyimiz şirin, portağal kimi deyildi. Portağalın dadının dəyişməsi əsrlərlə çəkib. Məlumatlara görə, şirin portağal XIV əsrə qədər insanlara məlum deyildi. Yəni acı portağalın yerinin şirin portağalların tutması üçün 500 il lazım olub.

Siciliyalılar və portuqallar Aralıq dənizi ətrafına portağal ağacları gətirdikdən sonra həmin ərazilərdə bu meyvələrin yetişdirilməsinə başlanılıb. İspanlar və hollandlar portağalı XVI əsrdə Anadoluya gətiriblər. Almanara isə portağalı türklər tanıdıblar.

XV əsrdə portağalı yalnız adlı-sanlı insanların süfrəsində görmək olardı, çünki o zamanlar bu meyvə çox baha idi. Portağalın bizə mifologiyadan məlum olan “qızıl alma” olduğu da deyilir. Portağalı müalicə məqsədilə də istifadə edirdilər. İnsanlar hesab edirdilər ki, taun xəstəliyinin müalicəsi zamanı bu meyvədən istifadə edilməsi çox faydalıdır.

## Portağal və ya “ilk rüşvət abidəsi”



Maraqlı faktlardan biri də odur ki, Ukraynanın Odessa şəhərində portağala abidə qoyulub. Portağal odessalılar üçün bu şəhəri xilas edən meyvə sayılır. Rusiyada çar II Yekaterina vəfat etdikdən sonra imperator olan oğlu I Pavel anasına nifrət etdiyi üçün onun qoyduğu bəzi ənənələri ləğv etmək istəyib. Buna görə də Odessanı imperiyanın böyük liman şəhərindən əyalət şəhərinə keçirmək barədə düşünüb. Bu səbəbdən çarın əmri ilə şəhərə göndərilən maliyyə yardımları dayandırılıb. Odessalılar imperatora qeyri-adi hədiyyə - 4000 portağal verərək şəhəri xilas etmək qərarına gəliblər. Heç vaxt bu meyvənin dadına baxmayan I Pavel portağalı o qədər sevir ki, şəhərə yenidən maliyyə ayırmağa başlayır. Müasir dövrün odessalıları bu abidəni yumorla “ilk rüşvət abidəsi” də adlandırırlar.

## Portağal ağacı 700 il yaşaya bilir

**Portağal ağacının uzunömürlülüyü adamı valeh edir. Bu ağacın orta ömür müddəti 100 ildir. O, Avropada 500 il yaşayır. Portağal ağacının hətta 700 il də yaşaya bildiyi iddia edilir. Bir ağacın orta məhsuldarlığı bir sentnerə qədər təşkil edir.**

Ümumilikdə dünyada təxminən 400 portağal növü var. Ancaq kommersiya məqsədilə istehsal olunan çeşidlər çox azdır. Dünyada ən çox yetişdirilən portağal çeşidi “Vaşinqton Navel”dir. Bu çeşid üzrə istehsal dünyadakı portağal istehsalının 77 faizini təşkil edir. “Vaşinqton Navel” çeşidi Braziliyanın Bahia bölgəsindəki “Celesta” portağal sortundan təbii mutasiya nəticəsində əmələ gəlib. Meyvənin əti möhkəmdir, onun kifayət qədər dadlı şirəsi olur. Bu meyvənin saxlanma və daşınmasının olduqca əlverişli olması istehsalda ona üstünlüyün verilməsinə səbəb olur.



“Vaşinqton Navel”dən təbii mutasiya nəticəsində əldə edilən “Cara Cara Navel” portağalı bu meyvənin çeşidləri arasında xüsusi fərqlənir. 1976-cı ildə Venesuelada əldə edilən bu portağalın içi adi portağallarda olan kimi sarı deyil, qırmızı rənglidir. “Cara Cara Navel” də istehsalçılar və istehlakçılar tərəfindən tələb olunan çeşiddir.

Türkiyənin Finike bölgəsi bütün dünyada özünün portağalları ilə məşhurdur. Buna səbəbsə Finike portağallarının dadı və keyfiyyətidir. ABŞ-ın Kaliforniya Universitetinin nəticələrinə görə, ən keyfiyyətli və dadlı portağal Finike düzündə yetişdirilir. Dünyanın bir çox yerində böyümək imkanı olanı bu sortların Finikedə keyfiyyətli ola bilməsinin əsas səbəbləri düzənliyin torpaq quruluşu, özünəməxsus küləyi, havası və suyudur.

## Dünyanın ən böyük portağalı



Dünyada ən böyük portağal Kaliforniyada yetişdirilib. Ginnesin Rekordlar Kitabına salınmış həmin portağalın çevrəsi 63,5 sm olub. Bu rekord 2 yanvar 2006-cı ildən ABŞ-ın Kaliforniya ştatının Fresno şəhərində yaşayan Patrik və Coan Fielderə məxsus bağda qazanılıb.

Hindistanın Naqpur şəhəri bölgədə yetişdirilən və satılan çoxlu portağal çeşidinə görə “Narıncı şəhər” adlanır. Şəhər təkcə Hindistanda ən böyük portağal istehsalçısı deyil. O həm də dünyanın çox hissəsinə portağal ixrac edən əsas şəhərlərdəndir. Naqpur portağalları unikal şirin-turş dada malik olmaqla yanaşı, misilsiz bir qoxuya malikdirlər. Hindistanın ən böyük portağalı da bu şəhərdə yerləşən fermada aşkar edilib. 23 noyabr 2020-ci il tarixində aşkarlanmış bu portağalın çəkisi 1,425 kq olub.

## Dekopon naringiləri dünyanın ən dadlı sitrus meyvəsi sayılır

**Dekopon naringiləri dadına görə portağala bənzəsələr də, ondan daha şirindirlər. Çünki bütün dekoponlarda limon turşusu səviyyəsi 1 faizdən aşağı olur. Bu meyvə o qədər şirindir ki, onu hətta konfetin dadı ilə müqayisə edirlər. Əslində, bir çoxları hədsiz şirinliyinə görə Dekoponun bu gün mövcud olan ən dadlı sitrus meyvəsi olduğunu iddia edirlər.**



Dekopon naringiləri adi naringilərlə müqayisədə ölçülərinə görə çox böyük olurlar. Onların qalın, qabarıq qabıqları olsa da, çox asanlıqla soyulur. Bu naringilər ilk dəfə 1972-ci ildə becərilib. “Dekopon”lar Yaponiyada ən məşhur sitrus bitkilərindən biridir. Burada onların qiyməti 9 ABŞ dollarına qədərdir.

Dünyada ən çox naringi istehsal edən ölkə Çindir. 2019-cu ildə dünyada naringi istehsalı 35,4 milyon ton təşkil edib. Qlobal ümumi məhsulun 56 faizi Çinin istehsalı olub. 2019-cu ildə İspaniya, Türkiyə, Mərakeş və Misir də əsas naringi istehsalçılarından olub. Bu ölkələrin hər biri bir milyon tondan çox naringi istehsal edib.

## Portağaldan pul qazanan ölkələr

**Portağal dünyada istehsal olunan sitrus meyvələri arasında çoxluq təşkil edən meyvədir. FAO-nun 2020-ci ildə verdiyi məlumata görə, 2019-cu ildə dünya üzrə sitrus meyvələri istehsalının həcmi 152 milyon 448,8 min ton təşkil edib ki, onun da 49,46 faizi portağal olub.**



Dünya üzrə ən çox portağal istehsal edən ölkə Braziliyadır. Braziliya dünya portağal istehsalının 30 faizini təkbaşına gercəkləşdirir. Aparıcı portağal istehsalçılarının siyahısında daha sonrakı yerləri Çin, Hindistan, ABŞ, Meksika, İspaniya tutur. İndoneziya və Türkiyə isə adları qeyd edilən ölkələrdən sonra dünyanın əsas portağal istehsalçıları sırasında yer tutur.

Dünyada ən çox portağal ixrac edən ölkə isə İspaniyadır. Bu ölkədə 40 milyondan çox portağal ağacının olduğu təxmin edilir. İspaniyanın dünyanın portağal ixracatında təxminən 25 faizlik payı var. Ən çox portağal idxal edən ölkələr Hollandiya, Fransa, Almaniya, Rusiya və Səudiyyə Ərəbistanıdır. Dünya portağal idxalının 8,2 faizi Hollandiyanın, 7,2 faizi Fransanın, 6,4 faizi Almaniyanın payına düşür.

## Azərbaycanda sitrus meyvələrinin istehsalı artırılacaq

**Azərbaycanın cənub bölgəsində sitrus meyvə bitkilərinin, o cümlədən naringi və portağalın becərilməsi üçün əlverişli təbii iqlim şəraiti var.**



Astara və Lənkəran naringi, portağal və limonu ilə dünyada tanınır. Bu sahə yüksək iqtisadi səmərəliliyə və ixrac potensialına malikdir. Astara və Lənkəranda əhali sitrusçuluğu ata-babadan özünün əsas məşğuliyyətinə çevirib. Ölkəmizdə sitrus meyvəçiliyinin inkişafının əsası 1930-cu ildə Astara rayonunda ümumi sahəsi 800 hektar olan Subtropik Bitkilər Sovxozunun yaradılması ilə qoyulub və onun 500 hektara yaxın ərazisində limon, naringi, portağal, feyxoa, çay, nəcib dəfnə və s. bitkilərin becərilməsinə başlanılıb. Həmin dövrdən etibarən ölkədə sitrus meyvə bağları planlı şəkildə artırılıb. Hazırda 5000 hektara qədər sitrus bağları var. 2025-ci ilədək sitrus meyvələrinin, o cümlədən portağal və naringinin istehsalının 100 min tona çatdırılması nəzərdə tutulur.

*İlhamə İSABALAYEVA,*
*“Azərbaycan”*

Sağlıq olsun

# Vitamin mənbəyi

**Qış aylarının ətirli meyvələri portağal və mandarin (naringi) sağlamlığa faydaları baxımından insanların sevimli qidasıdır. C vitamini deposu sayılan bu sitrus meyvələri orqanizmin immun sistemini gücləndirir, soyuqdəymədən və qripdən mükəmməl qoruyur. Lakin portağal və naringinin faydalı tərkibi sadəcə C vitamini ilə məhdudlaşmır.**



Portağalın tərkibində 170-dən çox fitokimyəvi maddə və 60-dan çox flavonoid var ki, həmin maddələrin bir çoxunun antiinflamatuar xüsusiyyətləri və güclü antioksidant təsirləri olduğu elmi baxımdan sübut edilib.

Portağal A, B1, B2, B9, PP, E vitaminləri, dəmir, marqans, yod, kobalt, mis, ftor, sink, kalium, kalsium, maqnezium, fosfor, orqanik turşular, qidalı liflər və s. kimi zəngin tərkibi səbəbindən orqanizmin bir çox sistemləri üçün çox xeyirlidir.

Bu şəfalı meyvə xərçəng əleyhinə də təsir göstərir. Belə ki, tərkibindəki D-limonen maddəsi dəri, süd vəzi, ağciyər, ağız və yoğun bağırsaq xərçənginin profilaktikasında böyük rol oynayır. “American Journal of Epidemiology” jurnalında dərc edilən araşdırmaya görə, həyatın ilk iki ilində portağal və digər sitrus meyvələri şirələrinin istehlakı uşaqlıq leykemiyasının inkişaf riskini xeyli azaldır.

## *Ürəyin “dostu”*

Portağalın faydalarına ürək sağlamlığını dəstəkləmək də daxildir. Meyvənin lif, kalium, C vitamini və xolin tərkibi ürək sağlamlığına müsbət təsir göstərir. Dadlı meyvə arterial təzyiqi aşağı salır, ürəyə düşən gərginliyi və ürək xəstəliklərinin riskini azaldır, damarlarda trombların əmələ gəlməsinin qarşısını alır. Həmçinin içərisindəki mis, dəmir və fol turşusu sayəsində qanın tərkibini yaxşılaşdırır.

Vanderbilt Tibb Məktəbi və klinik tibb professoru Doktor Mark Houstona görə, kalium qəbulunun artması və natrium qəbulunun azalması bir insanın ürək-damar xəstəlikləri riskini azaltmaq üçün edə biləcəyi ən vacib pəhriz dəyişiklikləridir. Eyni zamanda yüksək kalium qəbulu insult riskinin azalması, əzələ kütləsinin itirilməsindən qorunmaya və sümük mineral sıxlığına da əvəzolunmaz təsir göstərir. Kaliumla zəngin olması sayəsində portağal ürəyin əsl dostu sayılır.

Bu narıncı meyvənin faydaları anemiya riskini də azaldır. Anemiya qırmızı qan hüceyrələrinin və ya hemoqlobinin aşağı səviyyədə olması ilə xarakterizə olunan və oksigen daşıma qabiliyyətini azaldan bir haldır. Adətən dəmir çatışmazlığından yaranır. Portağal yaxşı dəmir mənbəyi olmasa da, C vitamini və limon turşusu kimi üzvi turşuları ehtiva etməsi səbəbindən bədəndəki həzm traktından dəmirin udulmasını artırır. Dəmirlə zəngin qidalarla birlikdə yeyildikdə portağal qan azlığının qarşısını alır. Eyni zamanda tərkibindəki limon turşusu sayəsində böyrək daşının əmələ gəlməsinin qarşısını əhəmiyyətli dərəcədə alır.

Zəngin lif mənbəyi olması portağalı şəkər xəstəliyi üçün də faydalı edir. Tədqiqatlar göstərir ki, yüksək lifli qidalar qəbul edən 1-ci tip diabetli insanlarda qan şəkəri daha aşağı olur, 2-ci tip diabetlilərdə isə qan şəkəri, lipidlər və insulin səviyyələri yaxşılaşır.

Pektinlərlə zəngin meyvə orqanizmi şlak və toksinlərdən təmizləyir.

Həmçinin bu ətirli meyvə insanın əhvalını yaxşılaşdırır, stressi azaldır, orqanizmin tonusunu artırır, yorğunluğu azaldır.

Lakin qastrit və xora kimi mədə narahatlığı olan şəxslər çox portağal istehlak etməməlidirlər. Çünki bu, mədə turşuluğunun artmasına, mədə yanmasına səbəb olur.

## *Yaddaşı gücləndirən meyvə*

Naringinin tərkibi insan orqanizminə faydalı maddələrlə zəngindir. İçərisindəki xərçəng əleyhinə təsir göstərən flavonoidlər orqanizmə daxil olan və hüceyrələrə zərər verən sərbəst radikalları məhv edərək immuniteti gücləndirir. Mandarinin tərkibində “salvestrol Q40” adlı maddə var ki, bu da bir çox xərçəng növlərinin, o cümlədən qaraciyər xərçənginin riskini azaldır. Sözügedən maddə mandarinin qabığında daha çoxdur. Bu səbəbdən qida mütəxəssisləri mandarin qabığını atmamağı, çay kimi dəmləyib içməyi, müxtəlif yeməklər, salat və şirniyyatlara əlavə etməyi tövsiyə edirlər. Mandarinin tərkibindəki güclü antioksidantlardan biri - A vitamini orqanizmdə gedən qocalma prosesini ləngidir, dərinin cavanlığını və gözəlliyini qoruyur, görmə problemləri riskini azaldır.

Mandarində bitkilərdə nadir rast gəlinən xolin maddəsi də var ki, bu, beyinin normal fəaliyyəti və yaxşı yaddaş üçün olduqca vacibdir.

Ürək-damar sisteminə faydalı olan mandarin aterosklerozun inkişafını ləngidir, damarların sağlamlığını və elastikliyini qoruyur, ürəyi möhkəmləndirir. Naringi həmçinin qana daxil ola biləcək bakteriyaları azaldır. Pis xolesterinin səviyyəsini aşağı salaraq ürək-damar xəstəlikləri riskini azaldır.

## *DNT hüceyrələrini mutasiyaya uğramaqdan qoruyur*

Bu meyvə qadınlarda hamiləlik dövründə azalan bəzi vitamin və maddələrin dəyərini artırmaqda çox təsirlidir. Fol turşusu və B vitamin kompleksi ilə zəngin olan mandarin həm ananın, həm də körpənin inkişafına müsbət təsir göstərir. Tədqiqatlar göstərib ki, adekvat fol turşusu əlavəsi qəbul etməyən insanlarda DNT hüceyrələrinin mutasiyaya uğrama riski artır. Bu isə xərçəng xəstəliyinin yaranmasına səbəb olur.

Mandarinin tərkibində olan bəzi amin turşuları bronxları selikdən təmizləməyə kömək edir. Məhz bu xüsusiyyətə görə mandarin və xüsusilə də onun şirəsi bronxit və astma xəstələri üçün əsl təbii dərman hesab olunur.

Naringi qurd, göbələk və mikrob əleyhinə xüsusiyyətlərə malikdir, orqanizmi toksin və şlaklardan təmizləyir, ümumi möhkəmləndirici təsir edir, orqanizmin tonusunu qaldırır.

Bu sitrus meyvəsi təbii antidepressant sayılır. Hətta mandarinin qoxusu insan sağlamlığına və əhvalına müsbət təsir edir - əhvalı yaxşılaşdırır, stressi və sinir gərginliyini azaldır, insanı sakitləşdirir. Mütəxəssislər streslə mübarizədə mandarin efir yağını qoxulamağı tövsiyə edirlər. Daha sadə üsul isə mandarinin qabıqlarını əldə əzib qoxulamaqdır.

Naringinin yağı həm də qiymətli kosmetik məhsuldur. Bu yağ dərini cavanlaşdırır, kiçik qırışları yox edir, dəridə bərpa proseslərini sürətləndirir.

Onu da nəzərə almaq lazımdır ki, bütün sitrus meyvələri kimi, naringi də güclü allergik xüsusiyyətlərə malikdir. Bundan əlavə, kolit, qastrit, mədə və onikibarmaq bağırsağın xorası xəstəliyi, xolesistit, bəzi böyrək xəstəllikləri olan insanlar bu meyvədən çox istifadə etməməlidir.

Resept

## Təbii dərman



Xalq təbabətində müalicəvi vasitə kimi mandarinin qabıqlarından geniş istifadə olunur. Naringinin lətində və qabıqlarında olan antioksidantlar öskürəyin qarşısını alır. Bunun üçün qurudulmuş mandarin qabıqlarının üzərinə isti su əlavə edərək dəmləyin. Bu mayeni iki həftə ərzində sərin yerdə saxlayın, daha sonra isə süzərək için.

İnsanların gündəlik həyatda qarşılaşdığı əsas problemlərdən biri də həzmdir. Naringi qabığındakı vitaminlər həzm problemlərini də həll edir. Toz halına gətirdiyiniz naringi qabıqlarını yeməklərinizə az miqdarda əlavə etsəniz, nəticəsindən razı qalacaqsınız.

Yeməkdən öncə mandarin qabığının üzərinə bir fincan isti su əlavə edib qəbul etsəniz, bronxit problemi ilə qarşılaşmayacaqsınız. Həmçinin tərkibindəki antioksidantlar sayəsində ağciyərə hava daşıyan kanalları açaraq, daxildə iltihabın yaranmasının qarşısını alacaq.

Kosmetik vasitələrin hazırlanmasında naringi qabığından istifadə edirlər. Lakin evdə kimyəvi maddəyə ehtiyac qalmadan dərinizə faydalı olan məcun hazırlaya bilərsiniz.

Bir qaba iki çay qaşığı rəndələnmiş naringi, portağal və qreyfrut qabığı töküb, iki yemək qaşığı bal əlavə edərək qarışdırın. Alınan qarışığı üzünüzə çəkin və 15 dəqiqə gözlədikdən sonra yuyun. Bununla siz yumşaq və təmizlənmiş dəriyə sahib olacaqsınız. Lakin bu maskanı əvvəlcə dərinizin kiçik hissəsinə çəkərək, allergik təsirin olub-olmadığını yoxlayın.

Yaşam

## Ağ lifləri atmayın

**Demək olar ki, əksəriyyətimiz naringi, yaxud portağalı soyandan sonra üzərində olan ağ lifləri çıxarıb atırıq.**



Lakin mütəxəssislər bu liflərin sağlamlığa olduqca faydalı olduğunu bildirirlər. Buna görə də narıncı meyvələri ağ lifləri ilə birlikdə yemək məsləhət görülür. Xüsusilə mandarinin ağ qabığında spesifik “qlikozid” maddələri var ki, bunlar da damar və kapilyarların sağlamlığı üçün çox faydalıdır.

C vitamini deposu olan naringi və portağal lifi qan təzyiqini salaraq xolestrolu və yüksək təzyiqi aşağı salır, qanı təmizləyir, ürək və damar xəstəliklərini önləyir, infarkt riskini yüzdə 25 faiz azaldır.

Adıçəkilən sitrus meyvələrinin üzərindəki liflər sellüloz maddələrlə zəngin olduğu üçün həzm sisteminin fəaliyyətini aktivləşdirir. Həmçinin mədə-bağırsaq sağlamlığına fayda verərək mədə əzələlərini gücləndirir. Xüsusilə həzm zamanı mədənin funksionallığını artırır. Bağırsaqlarda qida tullantılarının yığılmasının qarşısını alaraq defekasiyanı asanlaşdırır.

Bu faydalı liflər uzun müddət toxluq hissi yaradır. Bu baxımdan da kilo vermək istəyənlər üçün lif baxımından zəngin olan portağal və mandarin əvəzolunmaz qida hesab olunur.

Şəfalı

## Depressiyanın dadlı çarəsi

**Portağal şirəsinin tərkibi kalium, kalsium, sink, maqnezium, mis, fosfor, yod kimi vacib minerallarla zəngindir və bu minerallar orqanizmin normal fəaliyyəti üçün olduqca vacibdir.**



Ləzzətli şirə orqanizmin tonusunu qaldırır, əhvali-ruhiyyəni yaxşılaşdırır. Bu müsbət xüsusiyyətlərinə görədir ki, bir çox ölkələrdə təbii portağal şirəsi səhər yeməyinin zəruri atributu sayılır. Portağal şirəsi müxtəlif damar xəstəliklərinin ən yaxşı profilaktik vasitəsi sayılır. Bu şirənin tərkibində olan maddələr damarları daha möhkəm və elastik edir, tromblaşmanın qarşısını alır. Portağal suyu insanı ateroskleroz, insult, infarkt kimi xəstəliklərdən qoruyur. Nevroz və depressiyadan əziyyət çəkən insanların vəziyyətini yaxşılaşdıran bu müalicəvi şirənin soyuqdəymə və qrip zamanı qəbulu xəstənin vəziyyətini yaxşılaşdırır, immun sistemini gücləndirir, sağalmanı tezləşdirir.

Bütün bu faydalı xüsusiyyətlərinə baxmayraq, portağal şirəsi mədə-bağırsaq sisteminə qıcıqlandırıcı təsir edir. Bu səbəbdən mədə və onikibarmaq bağırsağın xorası, mədənin turşuluğunun artması, bir çox bağırsaq xəstəlikləri zamanı bu şirənin qəbulu əks-göstərişdir. Lakin hətta tam sağlam insanlar da təbii portağal şirəsini su ilə durulaşdırıb içməlidir. Şəkərli diabet zamanı portağal şirəsini içmək olmaz.

Xalq təbabəti

## Gəncliyin açarı

**Portağal meyvəsinin qabığındakı hüceyrələri soyuq sıxma texnikası ilə sıxaraq əldə olunan portağal yağının tərkibi B vitaminləri, kalsium, kalium və maqnezium kimi faydalı maddələrlə zəngindir.**



Təbii antidepressant olan portağal yağı təqdim etdiyi sitrus qoxusu sayəsində insana sakitləşdirici və təravətləndirici təsir göstərir. Antiseptik təsirə malik olan portağal yağı ağrıları aradan qaldırmaq xüsusiyyətinə də malikdir. Bu, əzələ və oynaq ağrılarına, həmçinin başağrısına müsbət təsir göstərir. Ətirli yağ masaj üsulu ilə bədənə daxil edildikdə bir çox problemi həll edir. Məsələn, bağırsaq fəaliyyətini tənzimləyən portağal yağı qarın nahiyəsinə çəkilərək masaj edildikdə ilk növbədə həzmi rahatlaşdırır. Toksinlərin atılmasını da asanlaşdıraraq, ödem kimi problemləri həll edir. Portağal yağının ən mühüm faydası isə hüceyrə yenilənməsi ilə bağlıdır. Hüceyrələri yeniləyən portağal yağı sızanaq kimi problemlərə təbii çarədir. Dəridəki ləkələrə tətbiq olunan portağal yağı eyni zamanda sızanaqları qurudur, qızartıları yox edir, qara nöqtələri təmizləyir. Kollagen artımını təmin edərək yaşlanma əlamətlərinin və dəri zədələnməsinin qarşısını alır, insanın daha gənc görünməsinə kömək edir.

*Yasəmən MUSAYEVA,*
*“Azərbaycan”*

# Tanınmış qrossmeyster Vüqar Həşimovun xatirəsinə həsr edilən yeddinci super turnirin təntənəli açılış mərasimi olub

**Azərbaycanın mərhum qrossmeysteri Vüqar Həşimovun xatirəsinə həsr edilən yeddinci super turnirin dekabrın 18-də təntənəli açılış mərasimi olub.**





AZƏRTAC xəbər verir ki, "Fairmont Baku" hotelində təşkil olunan yarışın açılış mərasimində əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Vüqar Həşimovun xatirəsi bir dəqiqəlik sükutla anılıb, tanınmış şahmatçının xatirəsinə həsr edilən videoçarx nümayiş olunub.

Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov açılış mərasimində çıxış edərək bu mötəbər turnirin hər il yüksək səviyyədə təşkilinin dünya şahmat ictimaiyyətinin marağına səbəb olduğunu deyib. Nazir bildirib ki, Vüqar Həşimovun xatirəsinə həsr olunan turnir təkcə Azərbaycanda deyil, bütün dünyada maraqla qarşılanır. Mərhum qrossmeyster qısa ömür yaşasa da, böyük nailiyyətlərə imza atıb. Bu gün Vüqar Həşimovun adına akademiya fəaliyyət göstərir. Həmin akademiyada onun arzuları və ideyaları reallaşdırılır. Nazir bu nailiyyətlərə görə Vüqar Həşimovun ailəsinə təşəkkürünü bildirib.

Azərbaycan Şahmat Federasiyasının prezidenti, Beynəlxalq Şahmat Federasiyasının vitse-prezidenti Mahir Məmmədov Bakının "Vüqar Həşimov memorialı"na ilk dəfə evsahibliyi etdiyini bildirib. M.Məmmədov vurğulayıb ki, super turnirdə dünyanın aparıcı şahmatçıları iştirak edirlər. Bu mötəbər şahmat turniri 2020-ci ildə pandemiya səbəbindən baş tutmadı. Ancaq həmin il Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu işğal altındakı torpaqlarımızı erməni təcavüzündən azad etdi. Hazırda işğaldan azad olunmuş ərazilərdə yenidənqurma və bərpa işləri həyata keçirilir. Gələcəkdə "Vüqar Həşimov memorialı"nın işğaldan azad olunan ərazilərdə keçiriləcəyinə əminliyini bildirən federasiya prezidenti qeyd edib: "Azərbaycan Prezidenti İlham Əliyev görkəmli şahmatçımız Vüqar Həşimovun xatirəsinə turnirin təşkil olunmasına ilk gündən böyük diqqət və qayğı ilə yanaşıb. Dövlət başçısı İlham Əliyev hər zaman idmançıların yanında olub və şahmatçılarımız da bu qayğını daim hiss ediblər. Bu səbəbdən bütün şahmat ailəsi adından Azərbaycan Prezidentinə təşəkkürümüzü bildiririk".




Vüqar Həşimovun atası Qasım Həşimov artıq ənənəvi qaydada təşkil edilən super turnirin keçirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib. Turnirin təşkilinin Azərbaycan xalqının öz oğlunun xatirəsini yaşatmasının bariz nümunəsi olduğunu vurğulayan Q.Həşimov təşkilatçılara minnətdarlıq edərək deyib: "Əvvəlki altı turnir Şəmkirdə təşkil olunub. Bakı ilk dəfədir yarışa evsahibliyi edir. Builki turnirdə Vişvanatan Anand, Fabiano Karuana, Sergey Karyakin kimi dünya çempionları iştirak edirlər. Bu da turnirin yüksək səviyyədə olmasından xəbər verir.

Oğlunun ideyalarından danışan Q.Həşimov mərhum qrossmeysterin yüksək insani keyfiyyətlərindən və mübarizliyindən söz açıb, iştirakçılara uğurlar arzulayıb.

Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənov turnirdə hər il ən güclü şahmatçıların iştirakına nail olduqlarını diqqətə çatdırıb. Federasiya rəsmisi turnirin reqlamenti barədə məlumat verib.

Daha sonra yarışın püşkü atılıb.

Açılış mərasimi konsert proqramı ilə davam edib.

Konsert proqramından sonra super turnirə start verilib. Rapid yarışının birinci turunda Azərbaycan təmsilçilərindən Şəhriyar Məmmədyarov Çexiya idmançısı David Navara, Rauf Məmmədov hindistanlı Vişvanatan Anand, Vüqar Əsədli isə Fabiano Karuana ilə qarşılaşırlar. Rusiyalı Sergey Karyakin isə Macarıstan zəka sahibi Riçard Rapporta rəqib olub.

Super turnirdə ilk gedişləri Vüqar Həşimovun atası Qasım Həşimov və Avropa Şahmat İttifaqının prezidenti Zurab Azmayparaşvili ediblər.

Qeyd edək ki, sayca yeddinci dəfə təşkil olunan "Vüqar Həşimov memorialı"nda qalib adı uğrunda 8 şahmatçı - Azərbaycan təmsilçiləri Şəhriyar Məmmədyarov, Rauf Məmmədov, Vüqar Əsədli, amerikalı Fabiano Karuana, Rusiya şahmatçısı Sergey Karyakin, Macarıstan idmançısı Riçard Rapport, hindistanlı Vişvanatan Anand və çexiyalı David Navara mübarizə aparırlar. Şahmatçılar turnirdə rapid və blits turnirlərində yarışırlar. Rapid yarışları 14 turdan ibarət olacaq və dekabrın 21-dək davam edəcək. Dekabrın 22-23-də isə blits yarışları keçiriləcək. Rapid yarışı 15 dəqiqə + 10 saniyə, blits turniri isə 5 dəqiqə + 3 saniyə nəzarət vaxtı ilə təşkil olunacaq.

Yarış Vüqar Həşimov Şahmat Fondunun təşkilatçılığı, Gənclər və İdman Nazirliyinin, Azərbaycan Şahmat Federasiyasının dəstəyi, SOCAR-ın sponsorluğu ilə keçirilir. Yarışa "Fairmont Baku" hoteli evsahibliyi edir.

Vüqar Həşimov memorialı ilk dəfə 2014-cü ildə Şəmkirdə keçirilib. Hazırkı dünya çempionu Maqnus Karlsen dörd (2014, 2015, 2018, 2019), Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov isə iki (2016, 2017) dəfə turnirin qalibi olublar.

# "Azercell"dən bol hədiyyəli yubiley ayı!

## 25 ilini qeyd edən mobil operator abunəçilərinə təşəkkür edir

Dekabrın 15-də fəaliyyətinin 25-ci ilini tamamlayan "Azercell Telekom" MMC bu illər ərzində abunəçilərini daim keyfiyyətli rabitə, sürətli internet və texnoloji yeniliklərlə təmin etməyə çalışıb. Əsrin dörddə birini geridə qoyan mobil operator bu əlamətdar tarixi 5 milyon abunəçisi ilə birlikdə qeyd edir.




"Azercell" komandası bu illər ərzində onu seçən və ona güvənən bütün abunəçilərinə təşəkkür edir və minnətdarlığının ifadəsi olaraq bol hədiyyəli yubiley ayını elan edir.

15 dekabr - 15 yanvar tarixlərini əhatə edəcək kampaniya zamanı "Azercell"in rəsmi sosial şəbəkə səhifələrində əyləncəli və sürpriz dolu müsabiqələr keçiriləcək. Müsabiqələrin keçirilməsi və şərtləri barədə istifadəçilər sosial səhifə və digər kommunikasiya kanalları vasitəsilə əvvəlcədən məlumatlandırılacaq.

Yubiley aylığında milyonlarla abunəçi əyləncəli vaxt keçirməklə yanaşı, həm də "Azercell"dən dəyərli hədiyyələr qazanacaqlar.

Ölkədə ilk dəfə GSM texnologiyasını, 4G texnologiyasını tətbiq edən, 5G texnologiyasının pilot şəbəkəsini test edən, 24/7 rejimdə çalışan "Çağrı" Mərkəzi quran və bu kimi bir çox ilklərə imza atan "Azercell" 25 illik fəaliyyəti ərzində ölkənin mobil rabitə bazarında lider mövqeyini möhkəmləndirib. Müqəddəs Vətən müharibəsi nəticəsində işğaldan azad edilən torpaqlarda ilk stansiya quran, həmin ərazilərdən ilk bağlantı yaradan da məhz "Azercell" olub.

Şəbəkəsini bütün ölkə ərazisində genişləndirməkdə olan "Azercell" indi "Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik!" məqsədi və "Sənə yaxın gələcək" şüarı ilə tamamilə fərqli bir rəqəmsal eraya qədəm qoyur. Yeni kommunikasiya konsepsiyası bir azərbaycanlı ailənin gündəlik həyat hekayələri əsasında hazırlanaraq müasir rəqəmsal və kommunikasiya həllərinin müştərilərə daha əlçatan və daha yaxın olduğunu göstərir. Məhz innovativ rəqəmsal həllər insanların həyat keyfiyyətini yaxşılaşdırmağa, təhlükəsizliyi artırmağa daha böyük töhfə verəcək.

"Azercell"in hədiyyə dolu yubiley ayına qatılmaq və dəyərli hədiyyələr qazanmaq üçün hər kəsi şirkətin sosial media hesablarını izləməyə dəvət edirik.

# Çövkən milli atüstü oyunu üzrə "Prezident Kuboku" turnirinə start verilib





Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) təşkilatçılığı ilə çövkən milli atüstü oyunu üzrə "Prezident Kuboku" turnirinə start verilib.

ARAF-dan AZƏRTAC-a bildiriblər ki, səkkizinci dəfə təşkil olunan turnirdə bu dəfə yalnız DNT təhlili vasitəsilə valideyn mənsubiyyəti müəyyən olunmuş milli cins atlardan istifadəyə icazə verilir. Bu şərtlərə əməl edən altı komandanın iştirakı ilə keçiriləcək yarışlarda ümumilikdə 10 qarşılaşma oynanılacaq.

Püşkatmanın nəticələrinə əsasən, üç güc səbətindən eyni reytinqə sahib olan komandalar iki qrupa ayrılıb. A qrupunda "Sərhədçi", "Buta Qolden" və "Köhlən", B qrupunda isə "Polad", "Murad" və "Omar" komandaları yer alıblar.

Turnirin açılış gününün ilk oyununda "Buta Qolden" komandası "Köhlən" komandası üzərində 9:0 hesablı qələbə qazanıb. İkinci görüşdə "Murad" komandası "Omar"ı 2:1 hesabı ilə məğlub edib.

Yarış dekabrın 18-dən 20-dək qrup oyunları, 22-dən 24-dək isə yarımfinal və final mərhələləri ilə davam edəcək. Qrup və yarımfinal oyunları Bakı Dövlət Cıdır Meydanında, final oyunu isə Binə Atçılıq Mərkəzində açıq havada və tamaşaçıların iştirakı olmadan keçiriləcək.

**ELAN**

"AZSPEC TRADİNG" MMC (VÖEN 1604300761) 17.12.2021-ci il tarixdə ləğv edildiyini elan edir.

Kreditorlar 10 bank günü müddətində cəmiyyətə müraciət edə bilərlər.

**Tel.: 050 319 99 04**

***Rəhbərlik***

**ELAN**

"AZCONEX" MMC (VÖEN 1604294821) 17.12.2021-ci il tarixdə ləğv edildiyini elan edir.

Kreditorlar 10 bank günü müddətində cəmiyyətə müraciət edə bilərlər.

**Tel.: 050 225 17 55**

***Rəhbərlik***

# Bir qrup hərbi qulluqçunun qanunazidd əməlləri ilə əlaqədar cinayət işləri Baş Prokurorluğun icraatına qəbul edilib

## Tərtər, Ağdam, Beyləqan rayonları istiqamətində yerləşən hərbi hissələrdə xidmət edən bir qrup hərbi qulluqçunun qanunazidd əməlləri ilə əlaqədar cinayət işləri üzrə Baş Prokurorluq, DİN və DTX əməkdaşlarından ibarət istintaq qrupları yaradılıb

Azərbaycan Respublikasının Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidməti Müdafiə Nazirliyinin hərbi qulluqçularının bir qrupunun qanunazidd əməlləri ilə əlaqədar aparılan cinayət işləri üzrə birgə məlumat yayıb.

Bu qurumların Mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, Müdafiə Nazirliyinin Tərtər, Ağdam, Beyləqan rayonları istiqamətində yerləşən hərbi hissələrində xidmət edən bəzi hərbi qulluqçuların qanunazidd əməlləri ilə əlaqədar 2017-ci ilin may-iyun ayları ərzində həmin bölmələrin və digər hərbi hissələrin bir qrup hərbi qulluqçusu cinayət-prosessual qanunvericiliyin tələblərinə zidd olaraq müvafiq səlahiyyətlərə malik olmadıqları halda qanunsuzluqlar törətməkdə şübhəli hesab etdikləri şəxsləri sorğulama prosesinə cəlb edib onlara fiziki və psixi zor tətbiq etməklə zərərçəkmiş şəxslərin ölümünə və digər ağır nəticələrə səbəb olan işgəncəyə, qeyri-insani və ləyaqəti alçaldan rəftara məruz qoyublar. Həmin faktlarla bağlı Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılıb. Təqsirləndirilən 19 şəxs barəsində 5 cinayət işinin ibtidai istintaqı yekunlaşdırılaraq aidiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərilib. Məhkəmələrin ittiham hökmləri ilə onlar müxtəlif cəzalara məhkum ediliblər.

Zərərçəkmiş şəxslərin, onların hüquqi varislərinin və digər şəxslərin ibtidai istintaqın gedişi və nəticələri, eləcə də məhkəmə qərarları ilə bağlı çoxsaylı müraciətləri nəzərə alınaraq Azərbaycan Respublikası Baş prokurorunun müvafiq sərəncamı ilə İşçi qrup yaradılıb, həmin cinayət işləri Respublika Hərbi Prokurorluğundan tələb edilib və ətraflı surətdə öyrənilib. Hər bir qanunazidd əməlin başvermə hallarının tam, hərtərəfli, obyektiv araşdırılması, bütün təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları, cinayətlərdən ziyan çəkmiş şəxslərin pozulmuş hüquqlarının bərpası və müdafiəsi üçün zəruri tədbirlərin görülməsi məqsədilə 2021-ci il dekabrın 16-da Baş Prokurorluqda göstərilən faktlar üzrə cinayət işlərinin icraatının təzələnməsi haqqında qərarlar qəbul edilib.

Cinayət işləri Baş Prokurorluğun icraatına qəbul edilməklə ibtidai istintaq Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən xüsusi nəzarətə götürülüb, prokurorluq, daxili işlər və dövlət təhlükəsizliyi orqanlarının təcrübəli və peşəkar əməkdaşlarından ibarət istintaq qrupları yaradılaraq ibtidai araşdırmaya prosessual rəhbərlik Baş prokurorun birinci müavininə tapşırılıb.

Hazırda müvafiq istintaq-əməliyyat planları əsasında kompleks tədbirlər həyata keçirilir və istintaqın gedişi barədə ölkə ictimaiyyətinə əlavə məlumat veriləcək.

Bununla yanaşı, kütləvi informasiya vasitələrinin nümayəndələrinin, sosial media platformaları istifadəçilərinin, eləcə də cinayət prosesi iştirakçılarının diqqətinə çatdırılır ki, ibtidai araşdırma məlumatlarının müvafiq icazə olmadan yayılması yolverilməz olmaqla cinayət qanunvericiliyinə əsasən məsuliyyət yaradır. Habelə istintaqa təsir göstərmək, cəmiyyətdə qəsdən yanlış fikir formalaşdırmaq, qalib Azərbaycan Ordusunun nüfuzuna, dövlət orqanlarının fəaliyyətinə kölgə salmaq məqsədilə qərəzli surətdə təhrif olunmuş məlumatlar yayan şəxslər barəsində qanunvericiliyə uyğun tədbirlər görüləcək.

# Son sutkada Azərbaycanda COVID-19 infeksiyasına 582 yoluxma faktı qeydə alınıb

Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 582 yoluxma faktı qeydə alınıb, 1370 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 15 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 609 min 397 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 585 min 284 nəfər müalicə olunaraq sağalıb, 8 min 182 nəfər vəfat edib. Aktiv xəstə sayı 15 min 931 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 10 min 495, bugünə qədər isə ümumilikdə 5 milyon 739 min 928 test icra olunub.

## ◆ Dünya gündəmi



# ABŞ Rusiyanın tələblərini NATO tərəfdaşları ilə müzakirə edir

**Ağ Ev Avropanın təhlükəsizliyinin baza prinsipləri ilə bağlı Qərbin kompromislərə getməyəcəyini vurğulayıb. Ağ Evin mətbuat katibi Cen Psaki bildirib ki, bütün ölkələr xarici müdaxilə olmadan siyasəti müəyyən etmək hüququna malikdir.**

## Avropalı müttəfiqlər və tərəfdaşlar olmadan danışıqlar aparılmayacaq

ABŞ avropalı tərəfdaşları ilə birgə Rusiyanın təhlükəsizliyinə zəmanət verilməsi ilə bağlı tələblər paketini müzakirə edir. "Qeyd etmək istəyirəm ki, avropalı müttəfiqlərimizin və tərəfdaşlarımızın iştirakı olmadan Avropa təhlükəsizliyi ilə bağlı heç bir danışıqlar aparılmayacaq", - deyə Ağ Evin mətbuat katibi Cen Psaki bildirib.

Bununla yanaşı, Ağ Evin nümayəndəsi Rusiya ilə razılığın əldə olunacağına əminliyini ifadə edib: "Biz onilliklər ərzində Rusiya ilə strateji məsələlərdə danışıqlar apara bilmişik və bunun bundan sonra mümkün olmayacağına heç bir səbəb görmürəm".

Daha əvvəl Rusiya Xarici İşlər Nazirliyi Moskva üçün təhlükəsizlik zəmanətləri üzrə tələblər paketini açıqlayıb. Digər məsələlərlə yanaşı, o, NATO-nun Şərqə doğru daha da genişləndirilməsindən və Ukraynanın öz tərkibinə qəbul edilməsindən, Şərqi Avropa, Zaqafqaziya və Mərkəzi Asiya ölkələrində hərbi fəaliyyət göstərməkdən, həmçinin orta və kiçik mənzilli raketlərin sazişin digər iştirakçılarının ərazisini vura biləcəyi mövqelərdə yerləşdirilməsindən imtina etməsini nəzərdə tutur.

Rusiya artıq bu təklifləri Qərb dövlətlərinin, o cümlədən ABŞ, Fransa və Böyük Britaniyanın liderləri ilə müzakirə edib. Bununla yanaşı, NATO Rusiyanı hələ təhlükəsizlik zəmanəti ilə bağlı danışıqlara başlamamışdan əvvəl Ukrayna ətrafında yaranmış böhranı aradan qaldırmağa çağırıb. "Rusiya danışıqlardan əvvəl Ukrayna ilə gərginliyi azaltmalıdır", - deyə NATO baş katibinin müavini Mirça Coane bildirib.

Qərbin xüsusi xidmət orqanlarının və kütləvi informasiya vasitələrinin məlumatlarına görə, Rusiya Ukrayna ilə sərhəddə 100 minədək hərbi qulluqçu yerləşdirib. NATO ehtiyat edir ki, Rusiya Ukrayna ərazisinə müdaxilə edə bilər, lakin Moskva bu niyyətləri inkar edir və öz növbəsində Qərbi Ukraynanı silahlandırmaqda və Rusiya sərhədləri yaxınlığında manevrlər keçirməkdə ittiham edir.

Xatırladaq ki, Rusiya Federasiyasının ABŞ-dan təhlükəsizlik zəmanəti almaq niyyətini ötən ay Xarici İşlər Nazirliyininin kollegiyasında Prezident Vladimir Putin bildirib. Rusiya lideri xarici siyasət idarəsinin nümayəndələrinə müvafiq təkliflər hazırlamağı tapşırıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5586
Sifariş 2626
Qiyməti 40 qəpik